RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 225 (8818) ÇƏRŞƏNBƏ AXŞAMI, 19 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl yerlərindən birinə çevriləcək

## Füzuli-Ağdam avtomobil yolunun təməli qoyulub



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunda səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Füzuli-Ağdam avtomobil yolunun tikintisi barədə məlumat verilib.

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirib ki, yolun tikintisi Prezident İlham Əliyevin bu ilin avqustunda imzaladığı Sərəncamla təsdiq olunmuş "İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi" çərçivəsində həyata keçiriləcək. Uzunluğu 64,8 kilometr, eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olacaq. Layihəyə uyğun olaraq yolboyu körpülərin, avtobus dayanacaqlarının və digər yol infrastrukturunun inşası nəzərdə tutulur. Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yolun inşası Bərdədən Füzuliyədək insanların rahat gediş-gəlişini təmin edəcək.

Dövlət başçısı Füzuli-Ağdam avtomobil yolunun təməlini qoyub.

Onu da qeyd edək ki, Bərdə-Ağdam, Əhmədbəyli-Füzuli-Şuşa, "Zəfər" yolu və Füzuli-Hadrut yollarında aparılan işlər də davam edir.

## Prezident İlham Əliyev Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd"in təməlini qoyub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunun Dövlətyarlı kəndində yeni salınacaq "ağıllı kənd" layihəsi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçısına və birinci xanıma layihə haqqında məlumat verib. Yaşıl və alternativ enerjinin, "ağıllı idarəetmə" sisteminin tətbiq ediləcəyi "ağıllı kənd" layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub.

Ardı 2-ci səh.



## İlk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq

### Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciət

Əziz həmvətənlər!

Sizi xalqımızın dövlətçilik ənənələrinin yenidən dirçəldilməsinin - müstəqilliyimizin bərpa edilməsinin 30-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşdür. Baş verənlər bir daha göstərmişdir ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.

Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Son illər ərzində iqtisadiyyatımızın həcmi üç dəfədən çox artmış, güclü iqtisadi infrastruktur yaradılmış, mədəni irsimizin qorunması, inkişafı və təbliğində, təhsil, səhiyyə və digər sosial sahələrdə ciddi uğurlar əldə edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkününün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır.

Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır.

Bizə Zəfər bəxş etmiş bütün igid oğullarımıza bir daha minnətdarlığımızı bildirir, Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

Hörmətli həmvətənlər!

Mənim təşəbbüsümlə irəli sürülmüş qanun layihəsinin qəbul olunması ilə bu ildən etibarən 18 Oktyabr ölkəmizdə Müstəqilliyin Bərpası Günü kimi qeyd ediləcəkdir. Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq. Yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2021-ci il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü münasibətilə rəsmi "İnstaqram" səhifəsində paylaşım edib.




AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bu gün biz dövlətin suverenliyini, xalqımızın azadlığını, möhkəm iradəsini və həmrəyliyini təcəssüm etdirən Müstəqilliyin Bərpası Gününü qeyd edirik. Bütün Azərbaycan xalqını bu bayram münasibətilə səmimi-qəlbdən təbrik edir, həmvətənlərimizin hər birinə möhkəm cansağlığı, sevgi, sevinc və xoşbəxtlik arzulayıram. Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyirəm. Qoy Azərbaycanın dövlət müstəqilliyi, ölkəmizdəki sülh və əmin-amanlıq əbədi olsun!"

# Qarabağ və Şərqi Zəngəzur dünyanın

## Prezident İlham Əliyev Füzuli rayonunun Dövlətyarlı kəndində “ağıllı kənd”in təməlini qoyub

Əvvəli 1-ci səh.

Burada həmçinin məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq, bazar yaradılacaq. Kəndin ətrafında isə “ağıllı kənd təsərrüfatı” sahəsi olacaq. Beləliklə, sakinlərin rahat yaşaması və kənd təsərrüfatı ilə məşğul olması üçün bütün zəruri işlər həyata keçiriləcək.

Prezident İlham Əliyevə kəndə yatırılacaq özəl investisiyalar və məşğulluq layihələri ilə bağlı da məlumat verilib. Bildirilib ki, burada xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaq. İnvestisiya layihəsinin gücü 50 meqavat olacaq. Tarlada 20 daimi iş yeri yaradılacaq.





Kənddə biznes layihələri də icra olunacaq. Burada kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq.

Kənddə Köndələnçay su anbarı əsasında “ağıllı” akvakultura sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması da nəzərdə tutulub. Burada quşçuluq təsərrüfatı da yaradılacaq, ilkin mərhələdə 85 daimi iş yeri olacaq.

“Ağıllı” turizm həllərinin tətbiqi vasitəsilə kənd turizm infrastrukturunun formalaşdırılması və hotel infrastrukturunun yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyev Dövlətyarlı kəndində yeni salınacaq “ağıllı kənd”in təməlini qoyub.

## Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıq





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma Füzuli Beynəlxalq Hava Limanında görülən işlər barədə məlumat verilib. Bildirilib ki, bütün tikinti və ətraf ərazinin abadlaşdırılması işləri başa çatdırılıb. Hava limanında görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

Hava limanında istənilən tip hava gəmisini qəbul etməyə imkan verən, uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Burada baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VIP zalların, mağazaların, restoranların və digər məntəqələrin işə salınması nəzərə alınmaqla, saatda ən azı 200 sərnişinin buraxılışına imkan verən terminalın tikintisi başa çatdırılıb.






## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkiblər





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkiblər.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlət başçısına və birinci xanıma yaradılacaq yeni park barədə məlumat verib.

Bildirilib ki, burada şəhər sakinləri və qonaqlar üçün 21 hektarlıq böyük meşə parkı salınacaq. Ərazidə 5000-dən çox Eldar şamı, həmişəyaşıl sərv, zeytun, Şərq çinarı, ağcaqayın və digər növ ağaclar əkiləcək. Bununla yanaşı, sakinlərin asudə vaxtının maraqlı təşkili məqsədilə istirahət guşələri, müxtəlif tədbirlər üçün amfiteatr zonası, kempinq və istirahət yerləri, uşaq və gənclərin yaş qruplarına uyğun əyləncə zonaları, ekstrim velosiped sahəsi və digər guşələr yaradılacaq.

Parkda salınacaq su hövzəsi kafe və restoranlarda dincələn sakinlər üçün fərqli mənzərə yaradacaq. Ərazidə 8,2 kilometr uzunluğunda velosiped və 7,5 kilometr uzunluğunda piyada yollarının salınması planlaşdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda ağac əkiblər.



## Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməli qoyulub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma tədbirində iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, “Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına və birinci xanıma mərkəz haqqında məlumat verib.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə yaradılan rəqəmsal yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Cənubi Qafqazda ilk dəfə tətbiq olunan bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Diqqətə çatdırılıb ki, rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar hər hansı bir texniki fasilənin yaranması haqda məlumatları onlayn qaydada əvvəlcədən ala bilirlər. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-birilə koordinasiyasını tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, “yaşıl enerji” mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir, daimi işçi heyətə ehtiyac olmur.

Prezident İlham Əliyev mərkəzin təməlini qoyub.

Qeyd edək ki, dövlət başçısının “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” sərəncamından sonra “Azərişıq” ASC tərəfindən paylayıcı şəbəkələrin “yaşıl enerji” zonası tələbləri üzərində qurulmasına start verilib və “ağıllı şəbəkələr” konsepsiyasının təməl elementlərindən biri olan rəqəmsal yarımstansiya layihəsi işlənib hazırlanıb.

# ən gözəl yerlərindən birinə çevriləcək

## Füzuli şəhərində çoxmənzilli yaşayış məhəlləsi salınacaq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma yeni yaşayış məhəlləsi barədə məlumat verilib.

Bildirilib ki, 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur.

Həyət tipli plan quruluşlarına malik yaşayış məhəlləsinin inşasında ənənəviliklə müasirlik vəhdət təşkil edəcək. Bu kompleks şəhərin gələcək memarlıq simasının müəyyənləşməsinə təkan verəcək.

Məhəllədə həmçinin iş mərkəzlərinin, ticarət, ictimai iaşə, mədəniyyət və məişət-kommunal obyektlərinin yerləşməsi nəzərdə tutulur. Ərazi yaşıllıq sahələri ilə əhatə olunacaq, hovuzlar və fəvvarələr quraşdırılacaq, velosiped yolları salınacaq. Yaradılacaq şərait doğma yurdlarına qayıdacaq rayon sakinləri üçün rahat şəhər mühitinin təşkilində mühüm rol oynayacaq.

Prezident İlham Əliyev Füzuli şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlini qoyub.

## Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli rayonuna səfərlə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Füzuli rayonuna səfərlə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Qürur hissi!!! Füzuli rayonuna səfər zamanı Vətən Müharibəsi Qəhrəmanları - polkovnik Hüseynov Telman Əsgər oğlu və mayor Səfərov Elvin Sərraf oğlu ilə görüş. Uca Tanrı bütün əsgər və zabitlərimizi qorusun!"

# "Biz öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüşdə çıxış edib.



## Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, əziz füzulililər, sizi səmimiyyətlə salamlayıram, Füzuliyə xoş gəlmisiniz deyirəm.

Biz azad edilmiş torpaqlarda bu gün Füzulinin işğaldan azad olunmasının birinci ildönümünü qeyd edirik. Düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusu Füzuli şəhərini və bir neçə kəndi işğalçılardan azad edib, Azərbaycan bayrağı qaldırılıb və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövləti bu ərazilərdə öz suverenliyini təmin etdi. Bu, tarixi hadisədir. Əminəm ki, 17 oktyabr günü Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi yer tutacaq. Çünki məhz oktyabrın 17-də bizim böyük şəhərimiz Füzuli işğalçılardan azad edildi. İkinci Qarabağ müharibəsində şəhid olmuş bütün şəhidlərimizə Allahdan bir daha rəhmət diləyirəm. Onların fədakarlığı, qəhrəmanlığı sayəsində biz tarixi ədaləti bərpa etdik. Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibə zamanı əsl vətənpərvərlik və qəhrəmanlıq göstərmişdir. Azərbaycan Ordusu düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək tarixi ədaləti bərpa etdi və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi.

Müharibə zamanı Füzulinin azad olunmasının çox böyük əhəmiyyəti var idi, çünki böyük yaşayış məntəqəsi idi. Cəbrayıldan, Hadrutdan sonra üçüncü böyük yaşayış məntəqəsi işğalçılardan azad edildi. Füzuli uğrunda çox şiddətli döyüşlər gedirdi, bir neçə gün ərzində şəhərin ətrafında çox ciddi əməliyyatlar aparılırdı. Düşmən müqavimət göstərirdi, amma buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirdi. Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz.

Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti eyni zamanda bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Füzuli nəzarətimizə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açıldı. Bir daha demək istəyirəm ki, Ermənistan tərəfi burada çox güclü istehkamlar qurmuşdu, bir neçə xətt istehkamdan ibarət müdafiə xətti qurulmuşdu. Otuz il ərzində düşmən burada möhkəmlənirdi və bu istehkamları yarmaq, keçmək xalqımızın bir daha böyük qəhrəmanlığını, fədakarlığını göstərmişdir. Təbii ki, bunu görən düşmənin gözü qorxdu. Gördülər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar. Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi. Təsadüfi deyil ki, Füzuli azad olunandan sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldı. Düşmən gördü ki, bizim qabağımızda dura bilməyəcək, düşmən gördü ki, artıq bizim önümüz açıldı, digər şəhər və rayonlarımızın azad edilməsi məsələsi qaçılmazdır.

Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi. Azərbaycan Silahlı Qüvvələri bundan sonra böyük əzmkarlıq göstərərək xilaskarlıq missiyasını uğurla davam etdirdi. Füzuli azad olunandan 3 gün sonra Zəngilan şəhəri azad edildi, ondan beş gün sonra Qubadlı, ondan sonra biz Laçın dəhlizinə çıxdıq və beləliklə, müharibənin taleyi heç kəs üçün sirr deyildi.

Biz öz torpaqlarımızı azad etməli idik. Mən işğal dövründə bu məsələ ilə bağlı Azərbaycan xalqına dəfələrlə müraciət edərək və keçmiş köçkünlərlə görüşlər əsnasında deyirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad etməliyik. Onu da deyirdim ki, əgər lazım olsa, biz güc tətbiq etməklə öz torpaqlarımızı geri qaytaracağıq. Belə də oldu. Həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bütün bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya sübut etdik ki, "yenilməz Ermənistan ordusu" nəyə qadirdir və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik. Bu şanlı Qələbə çoxəsrlik Azərbaycan tarixində əbədi yaşayacaqdır.

Onu da deməliyəm ki, bizim uğurlu əməliyyatlarımız məhz Füzuli rayonundan başlamışdır. Müharibənin ilk günündə - sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi. Yəni biz öz Zəfər missiyamızı məhz Füzuli rayonundan başlamışıq.

Bu gün Füzulidə olarkən hər kəs erməni vəhşiliyinin təzahürlərini görür. Çünki Füzuli ən çox dağıntılara məruz qalmış rayondur. Bir dənə salamat kənd yoxdur, bir dənə salamat bina yoxdur. Füzuli şəhəri tamamilə yerlə-yeksan edilib. Siz yaxşı xatırlayırsınız, Azərbaycan xalqı yaxşı xatırlayır, Füzuli azad olunandan sonra bir bina tapılmadı ki, biz oraya bayrağımızı sancaq. Bayrağımız hərbi hissənin həyətində dirəkdə qaldırılmışdı. Buraya gələn hər bir insan erməni vəhşiliyini, erməni vandallığını görür və bunu artıq heç kim inkar edə bilməz. Təsadüfi deyil ki, ermənilər işğal dövründə buraya heç kimi buraxmırdılar, hətta beynəlxalq təşkilatların nümayəndələrini də buraxmırdılar. Düzdür, işğal dövründə Minsk qrupunun nümayəndələri iki dəfə faktaraşdırıcı missiya ilə bu bölgələrə gəlmişdilər və müvafiq məruzələr hazırlanmışdı. O məruzələrdə göstərilirdi ki, düşmən burada böyük vandallıq törədib. Ancaq bu dərəcədə dağıntıları heç kim təsəvvür edə bilməzdi. Bu, erməni faşizminin eybəcər üzüdür, bütün dünya bunu görür və görməlidir. Artıq minlərlə insan, həm Füzuli sakinləri, eyni zamanda xarici diplomatlar, siyasətçilər, jurnalistlər azad edilmiş torpaqlara gəlib erməni vəhşiliyini öz gözləri görürlər.

Biz Füzuli şəhərini və Füzuli rayonunun kəndlərini bərpa edəcəyik. Ötən bir il ərzində bu istiqamətdə böyük işlər görülüb. Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar. Bu bir il ərzində biz çox genişmiqyaslı quruculuq işləri ilə, eyni zamanda şəhər və kəndlərimizin bərpası ilə də məşğul olmuşuq. Bu proses çox mürəkkəbdir. Burada düzgün planlaşdırma aparılmalı, minalardan təmizləmə işləri görülməlidir. Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur - yüz mindən çox mina basdırılıb. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıbdır. Birinci infrastruktur layihələri də məhz Füzulidə başlamışdır.

İşğal dövründə mən Füzuli rayonunun bizdə olan hissəsinə, ərazilərinə dəfələrlə gəlmişdim, 12 dəfə Füzuli rayonunda olmuşdum. Rayonun inkişafı ilə bağlı çox böyük işlər görüldü. Horadiz qəsəbəsinə şəhər statusu verildi və Horadiz Füzuli rayonunun qeyri-rəsmi mərkəzi müəyyən edilmişdir. Böyük sosial infrastruktur layihələri icra edildi - 24 məktəb, 2 xəstəxana, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Muğam Mərkəzi tikildi. İnfrastrukturla bağlı çox böyük işlər görülmüşdür. Fərdi evlərin bərpası işləri görülmüşdür. Yəni Füzuli rayonunun inkişafı ilə bağlı çox genişmiqyaslı işlər aparılırdı. Qeyd etdiyim kimi, 12 dəfə Füzulidə olmuşam. Burada köçkünlərlə görüşərək hər zaman onlara deyirdim ki, Füzuli şəhəri və rayonun qalan hissəsi azad olunandan sonra biz daha yaxşı evlər tikəcəyik, daha gözəl şərait yaradacağıq və siz qayıdacaqsınız. Bu gün artıq bunu hər kəs görə bilir. Çünki Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib. Bu gün hazır hava limanı ilə tanış olarkən mən bir daha gördüm ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir. Biz Füzulidən Şuşaya elektrik xətləri çəkdik. Çünki Şuşa azad olunandan sonra mənfur düşmən bütün elektrik xətlərini kəsib, hətta su xəttini də partlatmışdır və Şuşa işıqsız qalmışdır, özü də qış aylarında. Ona görə çətin şəraitdə Füzulidən Şuşaya elektrik xətləri çəkildi. Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyulmuşdur.

Yollarla bağlı. İndi siz gələndə yeni yoldan istifadə etdiniz. Görürsünüz, biz bu yolları qısa müddət ərzində çəkdik. Biz hətta Şuşaya qədər "Zəfər yolu"nu çəkdik və indi Füzuli-Şuşa magistral yolunun çəkilişi gedir. Hazırda Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarında işlər gedir. Bu gün Füzuli-Ağdam istiqamətində yeni yolun təməli qoyuldu. Eyni zamanda Ağdama gedən qonaqlar, vətəndaşlar Füzuli Beynəlxalq Hava Limanından istifadə edə bilərlər. Yəni Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır.

Bütün bu işləri görərək biz bir məqsədi güdürdük ki, keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytaraq. Bu gün təməl daşının qoyulması mərasimlərində iştirak edərkən biz artıq bu günü də böyük dərəcədə yaxınlaşdırmışıq. Bu gün Dövlətyarlı kəndinin inkişaf konsepsiyası təsdiq edildi, təməli qoyuldu. "Ağıllı kənd" konsepsiyası əsasında Dövlətyarlı kəndində böyük yaşayış məntəqəsi yaradılacaq. Beş kəndi birləşdirən bu layihə, ümid edirəm ki, gələn ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Ondan sonra əlavə 300 evin tikintisi nəzərdə tutulur və bu, Füzuli rayonunda birinci yaradılacaq yaşayış mərkəzi olacaqdır.

Bu gün Füzuli şəhərinin baş planı təqdim ediləcək. Artıq mənə bu baş plan təqdim edildi. Bu gün bərabər bu plana baxarıq. Bizim mütəxəssislərimiz bu plan üzərində uzun aylar ərzində işləyiblər. Bu gün biz hamımız bu layihə ilə bir daha tanış olarıq. Zəfər muzeyinin, İşğal muzeyinin təməli qoyulacaq.

Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi. Artıq göstəriş verildi və vəsait ayrıldı, digər şəhərlərimizin - Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Bütün bu işləri biz görəcəyik. Bildiyiniz kimi, heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.

Bu işləri görmək üçün əlbəttə ki, biz uzun illər işləmişik. Uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün şərait yaratmışıq, imkanlar yaratmışıq - texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları. Bu gün Azərbaycan iqtisadiyyatı pandemiya böhranından sonra dirçəlir. Artıq mənə verilən məlumata görə, doqquz ayın rəqəmləri müsbətdir, iqtisadiyyat təxminən 5 faiz artıb, sənaye də artıb, qeyri-neft sənayesi isə təxminən 20 faiz artıb. Ancaq hər kəs bilməlidir ki, bütün bu bərpa işləri böyük vəsait tələb edir. Yenə də deyirəm, Azərbaycan heç kimdən heç bir yardım, bir qəpik də yardım almayıb və almayacaq. Bu günə qədər almayıbsa, bundan sonra da almayacaq. Bunu öz imkanlarımız çərçivəsində edəcəyik. Mən tam əminəm ki, bütün planlarımız maksimum qısa müddət ərzində həyatda öz əksini tapacaq, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir.

Sabah - oktyabrın 18-i tarixi gündür. Otuz il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini elan etmişdir. Bildiyiniz kimi, mənim təşəbbüsümlə milli bayramlarımızla bağlı Azərbaycan Milli Məclisi düzəlişlər edib. Mən hesab edirəm ki, bu düzəlişlər tarixi həqiqətə və tarixi ədalətə tam uyğundur. Bizim üçün əsas müstəqillik bayramı 28 May günüdür, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günüdür. Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində birinci demokratik respublika məhz Azərbaycan xalqı tərəfindən yaradılmışdır. Biz bu gün müstəqil ölkə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisiyik. Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1991-ci il oktyabrın 18-də isə müstəqillik bərpa edildi. Edilən düzəlişlər məhz bu uyğunsuzluğa son qoydu və bunu hər kəs bilməlidir.

Onu da bildirməliyəm ki, hesab edirəm, o vaxt Azərbaycan rəhbərliyi müstəqilliyi elan edərkən çox əsassız vaxt itkisinə yol verib. Çünki müstəqillik daha əvvəl, daha tez elan oluna bilərdi. Bunu da hər kəs bilməlidir. Biz tarixə ədalətli yanaşmalıyıq. Biz ermənilərdən fərqli olaraq heç bir mifologiya yaratmamalıyıq. Tarixi olduğu kimi bilməliyik və qiymət verməliyik. Çünki 1991-ci ilin oktyabrında bir çox keçmiş müttəfiq respublikalar artıq öz dövlət müstəqilliyini elan etmişdir. Məndə siyahı var, mən həm sizə, həm də Azərbaycan xalqına bu məlumatı vermək istəyirəm, çoxları bəlkə bilmir.

Birinci keçmiş sovet müttəfiq respublikaları arasında öz müstəqilliyini Litva elan etmişdir - 11 mart 1991-ci ildə. Ondan sonra Gürcüstan - 9 aprel 1991-ci il, Latviya - 4 may, Belarus - 27 iyul, Estoniya - 20 avqust, Ukrayna - 24 avqust, Moldova - 27 avqust, Qırğızıstan - 31 avqust, Özbəkistan - 1 sentyabr, Tacikistan - 9 sentyabr, Ermənistan - 21 sentyabr, Türkmənistan - 27 sentyabr, Azərbaycan - 18 oktyabr. Bu qədər gözləməyin səbəbi nə idi? Bilirsiniz, mən bu suala cavab bilirəm. Bu, ritorik sualdır. Ona görə 18 oktyabr gününü böyük təmtəraqla qeyd etmək, yaxud da ki, kiməsə buna görə minnətdar olmaq tamamilə yersizdir. Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi. Rusiya çıxdı, Ukrayna çıxdı, bütün qalan respublikalar çıxdı. Azərbaycan rəhbərliyi nəyi gözləyirdi, kimi gözləyirdi? Bilirsiniz, ona görə bu tarixi bilmədən düzgün təsəvvür formalaşdırmaq çətindir. Gələcəkdə düzgün addımların atılması üçün də bu, vacibdir və gənc nəsil də bunu bilməlidir. Tarixi həqiqət belədir. Amma eyni zamanda bizim o ildə digər tarixi həqiqət var - o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri o addan götürüldü, sadəcə Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Bu tarixi videolar var. Eyni zamanda Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar addımı Azərbaycan Ali Soveti də etsin. Ancaq bunu etmədi. Əksinə, 1991-ci ilin yazında Sovet İttifaqı çərçivəsində keçirilmiş referendumda, Sovet İttifaqının saxlanmasına dair referendumda ovaxtkı Azərbaycan rəhbərliyi xalqın iradəsinə zidd olaraq o referendumun nəticələrini saxtalaşdıraraq Sovet İttifaqının saxlanmasına səs verdi.

Ancaq Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib? Ona görə 18 oktyabrla bağlı sabah mənim Azərbaycan xalqına təbrikim dərc ediləcək. Ancaq eyni zamanda mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi.

Bu gün bu tarixə toxunarkən, sadəcə olaraq, öz mövqeyimi, öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istəyirəm. Sabah digər tarixi gün qeyd olunacaq - Xudafərin qəsəbəsinin azad olunması. Oktyabrın 18-də Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünə çıxdı və Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı. Xudafərin körpüsü Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan xalqının istedadının sübutudur. Biz Azərbaycan xalqına məxsus olan bu möhtəşəm memarlıq əsəri ilə haqlı olaraq fəxr edirik.

Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik.

*Ardı 4-cü səh.*

# Qarabağ və Şərqi Zəngəzur dünyanın

## “Biz öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik”





*Əvvəli 3-cü səh.*

Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq. Bir daha sizi təbrik edirəm və yeni uğurlar, cansağlığı arzu edirəm. Sağ olun.

* * *

Milli Məclisin deputatı **Vüqar BAYRAMOV** dedi:

- Möhtərəm, cənab Prezident, çox hörmətli Mehriban xanım.

Füzuli sakinləri Sizi salamlayır, belə möhtəşəm tarixi günü onlara qismət etdiyinizə görə Sizə dərin minnətdarlıqlarını bildirirlər. Cənab Prezident, bu gün Füzuli rayonunun tarixində ən parlaq, ən qürurverici gündür. Çünki Sizin də qeyd etdiyiniz kimi, bir il öncə 27 illik erməni işğalına son qoyuldu. Bütün bunlar, möhtərəm Prezident, Sizin heç də hər bir dövlət başçısına, siyasətçisinə qismət olmayan siyasi təmkininiz, beynəlxalq arenada böyük diplomatik nüfuzunuz və təbii ki, hərb meydanında qəbul etdiyiniz cəsarətli qərarlar sayəsində mümkün oldu.

Möhtərəm Prezident, Ümummilli Liderimizin ən böyük arzusu torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün bərpası idi. Qarabağı və bu gün Sizin rəhbərliyinizlə təməli qoyulacaq Füzuli şəhərini işğaldan azad edən gənclər Ümummilli Liderimiz Heydər Əliyev məktəbinin davamçıları və Sizin idarəçiliyinizin yetirmələridir. Cənab Prezident, Siz çox haqlı olaraq tarixi məqamlara toxundunuz, Ümummilli Liderimizin yenidən hakimiyyətə qayıtması füzulililərin taleyində həlledici rol oynadı. Məhz Ulu Öndərimizin inamı, eyni zamanda böyük qətiyyəti nəticəsində 1994-cü ildə Füzuli rayonunun 21 kəndi, eləcə də strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsi işğaldan azad olundu. Daha sonra Sizin də qeyd etdiyiniz kimi, Horadiz qəsəbəsi şəhər statusu aldı və bu gün Horadiz Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biridir.

Cənab Prezident, Füzuli sakinləri hər zaman Sizi Prezident və Ali Baş Komandan olaraq dəstəkləyib və Sizin rəhbərliyinizlə torpaqlarımızın işğaldan azad olunacağına inanıblar. Bu gün xoşbəxtik ki, biz məğlub xalqdan qalib xalqa çevrildik. Füzuli sakinləri hər zaman, möhtərəm Prezident, Sizin, eyni zamanda çox hörmətli Mehriban xanımın diqqət və qayğısını hiss edib və qiymətləndiriblər. Sizin qeyd etdiyiniz kimi, işğaldan azad olunmuş ərazilərimiz - illər boyu həsrətlə baxdığımız və nisgilliklə xatırladığımız bu ərazilər artıq yeni quruculuq mərhələsinə qədəm qoyub. Cənab Prezident, Sizin rəhbərliyinizlə Füzuli rayonunda da bərpa və yenidənqurma mərhələsi başlayıb. Artıq Füzuli Beynəlxalq Hava Limanının inşası başa çatıb və yaxın vaxtlarda istifadəyə veriləcək. Bizim beynəlxalq hava limanı dünyada ən qısa müddətdə inşa edilən beynəlxalq hava limanlarından biridir. Bütün bunlar ondan xəbər verir ki, Sizin rəhbərliyinizlə işğaldan azad olunmuş ərazilərimizə çox qısa zamanda həyat gələcək. Sizin də qeyd etdiyiniz kimi, Qarabağ tezliklə cənnətə çevriləcək.

Cənab Prezident, cənnət Qarabağ bizimdir, cənnət Qarabağ Azərbaycandır! Cənnət Qarabağ, cənab Prezident, Sizin və çox hörmətli Mehriban xanımın rəhbərliyi ilə hər zaman bizim olacaq.

Təşəkkür edirəm.









* * *

AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində postmünaqişə ərazilərin bərpası elmi mərkəzinin rəhbəri **Akif MUSAYEV** dedi:

- Möhtərəm cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

Füzuli əhalisi Sizi Füzulidə salamlayır, hörmət və ehtiramını bildirir. Bu gün Füzuli əhalisi, eyni zamanda azad olunmuş Füzuli torpağı sevinc içindədir.

Cənab Prezident, mən elm adamıyam. Keçən əsrin 90-cı illərində mən sovet dönəmi Azərbaycan Respublikasının iqtisadi inkişafını təhlil etmişdim və bu dövrü üç mərhələyə bölmüşdüm - 69-cu ilə qədər olan dövr, 69-83-cü illər və 83-cü ildən sonrakı dövr. Sovet respublikalarının iqtisadi inkişafı ilə Azərbaycanın o dövrdəki iqtisadi inkişafını müqayisəli şəkildə təhlil edərək nəticələri ilə bağlı seriya məqalələrlə çıxış etmişdim. Həmin məqalələr “Azərbaycan iqtisadiyyatında Heydər Əliyev fenomeni” adlanırdı. Mən 69-83-cü illəri əhatə edən iqtisadi inkişafı Azərbaycan iqtisadiyyatının “qızıl dövrü” adlandırmışdım.

Bu gün də Sizin rəhbərliyinizlə Azərbaycan dövlətçiliyi və Sizin Ali Baş Komandanlığınızla Azərbaycan Ordusu özünün “qızıl dövrünü” yaşayır.

Cənab Prezident, xalqımızın dəstəyi, Sizin Ali Baş Komandanlığınızla müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan oğulları torpaqlarımızın azad olunması naminə şəhid oldular. Biz şəhidlərin ruhu qarşısında baş əyirik, qazilərimizə Allahdan şəfa diləyirik.

Cənab Prezident, Sizin Ali Baş Komandanlığınızla Azərbaycan Ordusu zəka müharibəsi apardı və müharibəni qələbə ilə başa çatdırdı. Bu, dünya hərb tarixində yeni bir səhifə açdı. Eyni zamanda Siz indiyə qədər Azərbaycana qarşı haqsız olaraq formalaşmış ədalətsizliyə son qoyaraq informasiya müharibəsində qələbə qazandınız. Həmçinin diplomatiya sahəsində qalib gəldiniz və erməni faşizminin havadarlarının nə dərəcədə ədalətsiz mövqe tutduğunu dünyaya bəyan etdiniz.

Müharibədən, Qələbədən bir ilə yaxın vaxt keçib. Bu müddətdə burada görülən işlərin miqyası, intensivliyi, sürəti onu göstərir ki, çox yaxın vaxtlarda bu strateji hədəfə də Sizin ali rəhbərliyinizlə nail olunacaq, əhali öz doğma yurdlarına qayıdacaq. Nəhayət, Qarabağ ruhu, Qarabağ mədəniyyəti Qarabağ torpağına qayıdacaq.

Cənab Prezident, Sizin tapşırığınıza əsasən, repatriasiya potensialının proqnozlaşdırılması və effektiv təşkili ilə bağlı araşdırmalar aparılır. İlkin nəticələrə görə, bütün əhalimizin çox böyük əksəriyyəti qayıtmaq əzmindədir və bu prosesi səbirlə gözləyirlər. Əmin ola bilərsiniz ki, bu insanlar Qarabağda aparılan quruculuq işlərində yaxından iştirak edərək Azərbaycanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.

Cənab Prezident, Füzuli əhalisi həmişə dövlətçiliyin, öz Prezidentinin yanında olub, bundan sonra da yanında olacaq. Füzuli əhalisi də bu quruculuq prosesində yaxından iştirak edərək öz töhfəsini vermək arzusundadır və bu, belə də olacaq.

Mən kiçik bir kənddə - Qorqan kəndində anadan olmuşam və o, təmas xəttində idi. Mən ildə bir dəfə yaz vaxtı övladlarımla, nəvələrimlə gəlib o kəndə binoklla baxırdım. Belə fikirləşirdim ki, nə vaxtsa o torpağa qayıtmaq və anadan olduğum o kəndi görmək mənə qismət olacaqmı? Bir dəqiqə də olsun ümidimizi itirməmişdik. Amma mən yaşda olan insanların bir nigarançılığı vardı ki, birdən ömür vəfa verməz o torpaqları görüm.

Cənab Prezident, çox sağ olun. Sizə minnətdarıq. Azərbaycan dövlətinə, Azərbaycan xalqına, Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə, Azərbaycan zabitinə minnətdarıq ki, bu sevinci bizə yaşatdı. Allah Sizi qorusun, Allah Sizin ailənizi qorusun. “Dəmir yumruq” da öz yerində. Sağ olun.

* * *

Azərbaycan Milli Konservatoriyasının dosenti, Xalq artisti **Elçin HƏŞİMOV** dedi:

- Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandanımız və çox hörmətli Mehriban xanım.

Sizi bu müqəddəs Qarabağ torpağında, Füzuli rayonunda görməkdən çox sevincli və qürurluyuq. Qarabağ torpağı, həmçinin Füzuli rayonu Azərbaycan mədəniyyətinə, musiqi mədəniyyətinə çox böyük simalar bəxş edib: xanəndələr, musiqiçilər, ifaçılar, bəstəkarlar. Təkcə bir insanın adını qeyd etmək kifayət edər ki, bax, bu gün tədris olunan Azərbaycan muğam proqramının müəllifi, ustad sənətkarımız Seyid Şuşinski məhz bu rayonun, Füzuli rayonunun övladıdır. Biz də gözümüzü açıb elə bu muğam musiqisini, xalq musiqisini eşitmişik və bu mühitdə formalaşmışıq. Əlbəttə ki, bu gün bizim muğamımız çox böyük nailiyyətlər əldə edir. Bu da Sizin və təbii ki, Mehriban xanımın muğamımıza xüsusi qayğısı ilə mümkün olub. Biz bunu daim hiss edirik və bu, danılmaz bir faktdır. Hələ torpaqlarımız işğal altında olarkən Qarabağda muğam mərkəzləri tikildi. Füzulinin yoxluğu zamanı Horadizə şəhər statusu verildi, orada, həmçinin Ağdamda, Ağcabədidə muğam mərkəzlərinin tikilməsi böyük rəmzi məna daşıyır. Bu, muğam ifaçılığına, muğam sənətinə, eyni zamanda yeni muğam ifaçılarına çox böyük stimul verdi. Mən bir də ona görə qürurluyam ki, Sizin tapşırığınıza əsasən tikilən “Zəfər yolu” mənim anamın, atamın doğulduğu kəndlərdən - məhz Əhmədbəyli, Mahmudlu kəndlərindən başlayır. Çox sevinirəm, hər zaman, hər yerdə deyirəm ki, mənim uşaqlığım burada keçib, buralarda çox gözəl günlər görmüşük və bundan sonra da gözəl günlər görəcəyik. Biz buna inanırıq, necə ki, həmişə Sizə inanmışıq.

Çıxışımın sonunda, cənab Prezident, bir məsələyə toxunmaq istəyirəm. Bu yaxınlarda Siz bizim qardaş Türkiyə kanallarının birinə müsahibə verərkən söylədiniz ki, mən o torpaqlara, işğaldan azad olunmuş torpaqlarımıza gedərkən gözlərimin önünə o bölgələrdə yaşamış insanlar gəlirdi. Çünki onlar buraları görmürlər, onlar bizim gözlərimizlə onu görməlidirlər.

Siz dediniz ki, hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər. Bu sözlər hamımızı çox duyğulandırdı və eyni zamanda qürurlandırdı.

Biz fəxr edirik ki, bizim Sizin kimi liderimiz, Ali Baş Komandanımız var. Azərbaycan xalqı, Qarabağ camaatı Sizinlə qürur duyur. Füzulililər Sizinlə fəxr edir və qürur duyurlar. Bu gün Füzuli torpağında olmağımızın, onun işğaldan azad olunmasının bir illiyini qeyd etməyimizin səbəbkarı Sizsiniz və heç zaman unudulmayacaq şəhidlərimizdir, qəhrəman qazilərimizdir. Buna görə Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun, var olun. Allah Sizi qorusun. Qarabağ Azərbaycandır!

* * *

ADA Universitetinin tələbəsi **Aysel CƏFƏRLİ** dedi:

- Möhtərəm Prezident və hörmətli Mehriban xanım.

Bu gün Sizin qarşınızda bir tələbə kimi, xüsusilə də Zəfər çalmış ölkənin tələbəsi kimi çıxış edirəm. Bu, çox şərəfli və qürurvericidir. Doğma yurdumun adını yüksəklərə qaldırmaq nəinki mənim, hər birimizin vətəndaşlıq borcudur, xüsusən də ağır pandemiya dövründə. Bilirik ki, bu xəstəlik qlobal bir problemdir və Azərbaycan onunla ən yüksək səviyyədə mübarizə aparır. Mən inanıram ki, biz bu xəstəliyə qalib gələcəyik. Çünki biz İkinci Qarabağ müharibəsinin qalibləriyik. O müharibənin ki, 44 gün ərzində öz şücaətimizi, qəhrəmanlığımızı bütün dünyaya göstərdik və burada “biz də varıq” dedik.

Düzdür, Qarabağı görməsəm də, səsini-sorağını çox eşitmişəm. Tarixə nəzər salsaq, oranın necə möhtəşəm yerlər olduğunu və buna görə də basqınlara məruz qaldığının şahidi olarıq. Məsələn, 1993-cü ilin sonlarında Qarabağın çox hissəsi ermənilər tərəfindən zəbt olunmuşdu. Lakin Ümummilli Liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın həm daxili, həm də xarici həyatında mühüm irəliləyişlər oldu. Buna 1994-cü ilin yanvarında baş tutmuş Horadiz əməliyyatını nümunə göstərsək, məncə, tam yerinə düşər. Çünki Horadizin bugünkü gözəlliyi hər kəsi valeh edir.

Azərbaycan sürətlə inkişaf edirdi və eləcə də digər ölkələr arasında tanınmağa başlayırdı. Əfsuslar olsun ki, 2003-cü il dekabrın 12-də biz Ümummilli Liderimizi itirdik və xalqımız dərin kədərə qərq oldu. Lakin cənab Prezident, Siz Prezident seçiləndən sonra xalqımız yenidən dirçəlməyə başladı, Azərbaycan yenidən inkişaf etməyə başladı. Mən əminəm ki, qəlbimizdə yaşatdığımız Ümummilli Liderimiz əgər hazırda Azərbaycanı görsəydi, necə sürətlə inkişaf etdiyinin, əmin əllərdə olduğunun və ən əsası, Qarabağımızı aldığımızın şahidi olar və sevinib fərəhlənərdi. Təbii ki, bunlar Sizin düzgün mövqeyinizin və uzaqgörən siyasətinizin nəticələridir. Unutmaq olmaz ki, torpaq su ilə qarışanda palçıq olur, qanla qarışanda Vətən. Buna görə Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa və digər əsgərlərimizə uzun ömür diləyirəm.

Sizə çox təşəkkür edirəm ki, bu sevinci bizə yaşatdınız. Eyni zamanda şəhid ailələrinə və qazilərə göstərdiyiniz dəstəyə görə də Sizə minnətdarlığımı bildirirəm. Bunu da vurğulamaq istəyirəm ki, məcburi köçkün ailələrinə göstərdiyiniz dəstək də danılmazdır. Çünki neçə-neçə tələbənin ödənişinin qarşılamağınızın şahidiyik və o tələbələrdən biri də mənəm. İllərdir xəyalını qurduğum yüksək təhsil imkanına malik ADA Universitetinə bu il qəbul olmuşam və eyni zamanda Prezident təqaüdünə layiq görülmüşəm. Bunun üçün Sizə çox təşəkkür edirəm. Məqsədim gələcəkdə üzünü görmədiyim, azad olunmasını eşidəndə kövrəlib ağladığım Füzuli rayonunda hüquqşünas kimi fəaliyyət göstərməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Füzuli rayon Ağsaqqallar Şurasının sədri **Zülfüqar ƏLİYEV** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Azərbaycan xalqına ilk Qələbə sevincini Ulu Öndər, fenomen şəxsiyyət Heydər Əliyev Ali Baş Komandan olduğu dövrdə yaşatdı. İkinci Qələbə sevincini də yenə Füzuli cəbhəsində, hörmətli Prezidentimiz, Siz yaşatdınız. Üçüncü Qələbə sevinci də yenə Füzulidən başladı. Bu sevinci də Siz bizə XXI əsrin müharibəsini apararaq yaşatdınız. Buna görə də Sizə “çox sağ olun, ömrünüz uzun olsun” deyirik.

Bu tərəfə uçan quşlara həmişə biz həsəd aparardıq. İndi Sizin saldığınız o “Zəfər yolu” ilə - o şüşə kimi yolla biz Şuşaya gedirik, Füzuliyə gəlirik. Şuşada festivallar keçiririk, “Xarıbülbül” festivalını, Vaqifin poeziya günlərini, Üzeyir bəy Hacıbəylinin musiqi festivalını keçiririk. Mehriban xanımın dəstəyi ilə Heydər Əliyev Fondunun hesabına bizim oradakı müqəddəs məscidlərimiz - Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri, Saatlı məscidi, habelə Xalça muzeyi, Rəsm qalereyası təmir olunub, vətəndaşların istifadəsinə verilib. Bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk, möhtərəm Prezidentimiz.

Siz beynəlxalq hava limanı tikdirməklə Füzuli rayonu ilə Bakı arasındakı məsafəni 30 dəqiqəyə endirmisiniz. Çox sağ olun, bu hava limanı mən deyərdim ki, Füzulinin simvoludur, Füzulinin açarıdır. Füzulililər Sizi çox sevir.

Möhtərəm cənab Prezident, 2003-cü ildə füzulililər öz qəti sözünü deyib, yekun qərarını verib.

# ən gözəl yerlərindən birinə çevriləcək

## "Biz öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik"





Siz bizim əbədi Prezidentimizsiniz. Biz o vaxtı düzgün seçim etməsəydik, bu gün burada görüşə bilməzdik.

Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin. Azərbaycanın gələcəyi naminə Sizə uğurlar arzulayırıq. Çox sağ olun.

* * *

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, əziz dostlar, xoş sözlərə görə sizə minnətdaram. Təkcə bir şeyi əlavə etmək istərdim ki, bu, bizim hamımızın Qələbəsidir. Çünki Azərbaycan xalqı yorulmadan bu Qələbəyə doğru addımlayırdı. Hər birimiz, hərə öz yerində öz töhfəsini ümumi Qələbəmizə, ümumi inkişafımıza verərək bu günü, bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təsadüfi deyil ki, İkinci Qarabağ müharibəsi bizdə Vətən müharibəsi adlandırılır. Çünki hər birimiz, hər bir Azərbaycan vətəndaşı bu günü nəinki səbirsizliklə gözləyirdi, bu günə inanırdı, eyni zamanda öz əməyi ilə bu günü yaxınlaşdırırdı. Bizim üçün, xalqımız üçün torpaqlarımızın azad olunmasından daha vacib məsələ heç vaxt olmamışdır. Mən hesab edirəm ki, Qələbəmizin əsas amillərindən biri də məhz budur. Çünki biz Qarabağı unutmadıq, biz o vəziyyətlə barışmadıq. Halbuki bizə deyilirdi ki, artıq reallıqla gərək hesablaşasınız, siz birinci müharibədə, yəni 1990-cı illərdə məğlubiyyətə uğramısınız. Siz indi gərək bu vəziyyətlə barışıb ermənilərlə kompromisə gedəsiniz, dil tapasınız. Mənim mövqeyim bəllidir. Mən bu mövqeyi həm ölkə daxilində, həm beynəlxalq tədbirlərdə bütün kürsülərdə çıxış edərkən bəyan edirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Mənə güc verən məhz xalqımızın əzmkarlığı idi. Çünki xalqımız barışmadı və görün, bu torpaqları görməyən cavan qız hansı sözləri deyir. Bu torpaqları görməyən cavanlarımız bu torpaqlar uğrunda ölümə gedirdilər. Bu, xalqımızın böyüklüyünü bir daha göstərir. Tarixdə müharibələr çox olub, münaqişələr olub, elə hallar olub ki, xalqlar istila ilə, işğalla barışmış olublar, boyunlarını büküb əyilmiş olublar. Amma bizim xalqımız həmişə başını dik tutub. Biz həmişə bir arzu ilə, bir fikirlə yaşamışdıq ki, gün gələcək, ədaləti bərpa edəcəyik, xalqımızın üstündən "məğlubedilmiş" sözünü atacağıq, qürurlu xalq kimi, müzəffər xalq kimi yaşayacağıq və bu gün gəldi. Əgər xalqımız buna inanmasaydı, əgər cəmiyyətimiz bizim o sahədəki siyasətə dəstək olmasaydı, müharibəni bu nəticələrlə başa vurmaq çox çətin olardı. Ona görə bu, bizim hamımızın qələbəsidir, hamımızın təntənəsidir.

Əlbəttə ki, bir çox amillər var. Bu haqda artıq danışılıb. Bu Qələbəmizi şərtləndirən amillər nəzərə alınaraq kitablarda, məqalələrdə, elmi araşdırmalarda yazılacaq. Amma hesab edirəm ki, bunların arasında ən başlıcası məhz əyilməz ruhumuz və vətənpərvərliyimizdir. Məhz bu bölgədə bizim cavanlarımız, cavan əsgər və zabitlərimiz ölümə gedirdilər. Bütün o mövqelərdə, o dağlıq mövqelərdə ermənilər yerləşmişdilər. Onlar orada 30 il yerləşmiş, istehkamlar, bunkerlər, uzunmüddətli atəş nöqtələri qurmuşdular. Biz isə düzənlik olan yerdən o təmas xəttini keçərək, o istehkamları yararaq gedirdik, bizim gənclər ölümə gedirdilər. Ona görə birinci amil vətənpərvərlik, Vətənə olan sevgi, məhəbbətdir. Bu amil bizim xalqımızı bundan sonra da yenilməz xalq kimi yaşadacaq.

Əsas vəzifəmiz, - əlbəttə, torpaqlarımızın qurulması, bərpası öz yerində, - gəncləri bu vətənpərvərlik ruhunda böyütməkdir. Çünki bu olmasa, onda bizim arzularımız yarımçıq olacaq. Vətənpərvərlik olsa, Vətənə bağlılıq olsa, heç bir qüvvə bizim qabağımızda dura bilməz.



Bizi həm müharibədən əvvəl, həm müharibə zamanı, həm də bəziləri müharibədən sonra hədələməyə çalışırdılar və çalışırlar. Amma bütün bu səylər puça çıxdı. Çünki heç kim bizim iradəmizi əyə bilməz. Biz öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik. Bunu hər kəs bilsin. Bizi hədələməyə çalışanlar indi haradadırlar, hər kəs bilir. Hamı üçün dərs olmalıdır, ibrət olmalıdır. Azərbaycanla diktat dili ilə, hədə-qorxu dili ilə heç kim danışa bilməz.

Mən bir daha sizi bu müqəddəs gün münasibətilə - Füzulinin azad olunması günü münasibətilə təbrik edirəm, sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, biz tezliklə bu gözəl diyarı quraq, bərpa edək. Sizinlə burada hələ çox-çox görüşəcəyik. Bir daha sağ olun.

* * *

**Prezident İlham ƏLİYEV:** İşlər gedir?

**Sakin:** Bəli, işlər gedir, bəlkə mindən çox texnika var.

**Prezident İlham ƏLİYEV:** Orada indi işlər yaxşı gedir.

**Sakin:** Çox yüksək səviyyədə, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Milli qəhrəmanlarla görüşüm.

**Polkovnik HÜSEYNOV:** Cənab Ali Baş Komandan, polkovnik Hüseynov.

**Mayor SƏFƏROV:** Cənab Ali Baş Komandan, mayor Səfərov.

**Prezident İlham ƏLİYEV:** Gəlin, baş planla tanış olaq, sonra Zəfər muzeyinin də təməlini bərabər qoyaq.

Şəhərsalma və Arxitektura Komitəsinin sədri **Anar QULİYEV:** Möhtərəm Prezident, hörmətli Mehriban xanım, Füzuli Memorial Kompleksi şəhərin mərkəzi hissəsində yaradılacaq. Durduğumuz məkanda, 5 hektarlıq ərazidə İşğal muzeyi, Memorial Kompleks və ona bitişik Zəfər parkı salınacaq. Həmçinin yüksək bir məkanda Bayraq meydanı yaradılacaq. İcazənizlə kiçik bir film nümayiş etdirmək istərdik.

Film nümayiş olunur.

**Anar QULİYEV:** Cənab Prezident, videoda da göründüyü kimi, Bayraq meydanı şəhərin ən yüksək nöqtəsində salınacaq və Füzulinin yeni simvolu olacağına inanırıq. Xüsusən də axşam vaxtı işıqlandırma effektləri ilə hər tərəfdən görünəcək. Muzey 6 əsas zaldan ibarət olacaq. Hər zal bir mövzuya həsr olunacaq, Füzulinin və Qarabağın strateji əhəmiyyətindən bəhs edəcək. Muzeyin alt qatında erməni işğalçıları tərəfindən qurulmuş istehkamlar təqdim olunacaq. Bununla yanaşı, Füzulini azad edərkən bizim hərbçilərimizin mükəmməl qurduğu strategiyaya həsr olunmuş bir zal da olacaq. Həmçinin Füzuli işğaldan azad olunduqdan sonra onun görkəmi, bugünkü vəziyyəti və təbii ki, şəhidlərimizin xatirəsinə həsr olunmuş ayrıca bir ekspozisiya da təşkil olunacaq. Muzey böyük bir parkda yerləşəcək. Parkda həmçinin Zəfər abidəsi qurulacaq. İcazənizlə, abidənin müəllifi Rəşad Mehdiyevi təqdim edim.

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə.

**Rəşad MEHDİYEV:** Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, mənim əsərimə dəyər verdiyinizə görə Sizə təşəkkür edirəm. Bu abidə üç hissədən ibarətdir. Podium, sonra lövhə və sütunlar. Lövhədə Füzulidə ağır döyüşlərdə qəhrəmancasına həlak olmuş igidlərin adları əks olunacaq. Abidənin davamında 44 sütun olacaq ki, ümumi 44 simvolunu əks etdirəcək.

**Prezident İlham ƏLİYEV:** Səmadan da görsənəcək?

**Rəşad MEHDİYEV:** Yuxarıdan da, bütün hər tərəfdən görsənəcək. Orada elə bir instalyasiya yaranacaq ki, bu 44 simvolu havada kimi görünsün.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Çox təsirli əsərdir. Bu dağıntılar açıq səma altında da olacaq.

**Anar QULİYEV:** Bəli, növbəti hissədə Zəfər parkı ilə yanaşı, 5 hektarda İşğal muzeyi və park təşkil ediləcək. Dağıntılar bu gün həmin ərazidədir, olduğu kimi konservasiya olunub saxlanılacaq.

**Prezident İlham ƏLİYEV:** Azad edilmiş hər bir şəhərdə biz belə bir yer saxlayırıq, dağıntılar qalsın ki, camaat görsün, gənclər görsün, xarici qonaqlar gəlib görsünlər.

**Sakinlər:** Qarabağ bölgəsi həm abidələri ilə məşhurdur, həm də kəhrizləri ilə məşhur olub. Böyük mədəniyyətdir. Ümumiyyətlə, kəhriz mədəniyyətinin Qarabağda çox böyük şəbəkəsi var. Bizim kənddə Şah Abbas tərəfindən vurulmuş kəhriz var idi.

**Prezident İlham ƏLİYEV:** Hansı kənddir sizinki?

**Sakinlər:** Qarğabazar.

**Prezident İlham ƏLİYEV:** Bəli, Qarğabazar məşhur kənddir. O, azad olunanda biz çox sevinirdik. Çünki o, böyük kənddir.

**Sakin:** O, azad olunanda o qədər ağladım ki... Ən qədim məktəb də oradadır.

**Prezident İlham ƏLİYEV:** Kəhrizlər baş planda nəzərdə tutulur?

**Anar QULİYEV:** Həm bulaqlar var burada, cənab Prezident, bəziləri artıq açılıb və müayinə olunub.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, bunu nəzərə alın.

**Anar QULİYEV:** Kəhrizlərə də mütləq bir-bir baxacağıq.

**Prezident İlham ƏLİYEV:** Ümumiyyətlə, inşaat zamanı gərək Füzuli ictimaiyyəti ilə siz sıx əlaqədə olasınız, həm burada, həm də Bakıda. Bu müzakirədə də onlar iştirak etsinlər.

**Qadın sakin:** Cənab Prezident, mən də Sizi salamlayıram, öz evinizdə salamlayıram, hamımız bir yerdə. Deyilən bütün sözlərin hamısına mən də şərikəm. Bu illər ərzində Siz bütün övladlarımızı, keçmiş məcburi köçkün uşaqlarının hamısını oxutmusunuz. Çünki onların təhsil haqqını dövlət ödəyib. Hər il bizim 500-600 şagirdimiz ali məktəblərə qəbul olur. Ulu Öndər təməlini qoydu və bu gün də Siz onu davam etdirirsiniz.

**Sakinlər:** Allah Ulu Öndərimizə rəhmət eləsin.

**Digər qadın sakin:** Mən də cənab Prezident, Sizi salamlayıram öz doğma evinizdə. Yaralılar birinci bizə - Sizin sərəncamınızla tikilən Müalicə Diaqnostika Mərkəzinə, mərkəzi xəstəxanalara gəlirdilər. Azərbaycanın həkimləri, professorları, alimləri bizi tək qoymadılar, biz, Füzuli həkimlərinə birinci gündən köməyə gəldilər. Bu könüllü proses bizim ürəyimizi dağa döndərdi, riqqətə gətirdi. Yəni əsgərlərə qulluq etməyimizə, onlara yardım göstərməyimizə çox kömək oldular. Biz onların təcrübəsini öyrəndik. Yəni hər bir əsgərin, - mən indi hörmətli Mehriban xanıma da söylədim, - sinəsində, ürəyinin başında Azərbaycan bayrağı var idi. Hamısı istəyirdi ki, o şərəfli bayrağı aparıb Şuşada ucaltsın. Bu, bizi daha da riqqətə gətirirdi. Biz həkimlər bütün günü onların qayğısına qalırdıq, onlara qardaş kimi, övlad kimi kömək göstərirdik, xidmət edirdik. Bu Zəfəri, bu Qələbəni bizə yaşatdığınıza görə Sizə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Mən sizə, bütün həkimlərə təşəkkür edirəm. Sağ olun.

**Qadın sakin:** Mən çox fəxr edirəm ki, biz azərbaycanlıyıq, bizim dünya miqyasında olan hörmətimizi Siz daha da ucaltdınız. Sizin sayənizdə biz bundan sonra həmişə başıuca gəzəcəyik. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Təşəkkür edirəm.

**Sakin:** Cənab Prezident, mən tez-tez BMT-nin baş ofisində tədbirlərə qatılıram. Mən Sizin orada ilk gündən çıxışlarınızı qürurla izləmişəm. Yəni o duruşunuzla, o qamətinizlə bu 44 gündə də o mesajları dünyaya verdiniz. Sizin o mesajlarınız ölkəmizi beynəlxalq aləmdə bir daha tanıtdırdı. Həm də ölkəmizlə bağlı çox böyük bir təbliğat getdi. Yəni Siz 30-dan çox müsahibə verdiniz.

**Prezident İlham ƏLİYEV:** Ermənilər artıq uzun illər bizim haqqımızda olmazın yalanlarını uydururdular, öz şəbəkələri vasitəsilə də bunu yayırdılar. Bizim beynəlxalq mediaya çıxmağa o dərəcədə imkanımız yox idi. Ona görə bu imkandan istifadə etdik və müharibə dövründə hiss olunurdu ki, fikir daha çox reallığa əsaslanır.

**Sakin:** Cənab Prezident, Siz bizim xilaskarımızsınız. Bütün gənclərdən tutmuş mənim kimi yaşlı insanlara qədər Sizi xilaskar bilirik.

**Prezident İlham ƏLİYEV:** Mənim borcum idi, vəzifəm idi. Həmişə hiss edirdim ki, xalq arxamdadır. Mənə güc, inam verən o idi. Bizi Qələbəyə aparan ürəyimizdəki inam oldu.

**Sakin:** Cənab Prezident, mən üç əsas faktı qeyd etmək istəyirəm - birincisi, o "Dəmir yumruq" siyasətiniz, ikincisi, xalqın Sizin ətrafınızda möhkəm birləşməsi, üçüncüsü, şanlı Ordumuzun Qələbəsi. Ordumuzun bu şanlı Qələbəsinin özülü 1993-cü ildə qoyulmuşdur.

**Prezident İlham ƏLİYEV:** Ordu məsələləri həmişə birinci sırada idi mənim üçün. Ona görə təsadüfi deyil ki, bizim dövlət büdcəmizdə həmişə birinci xərclər həcminə görə ordu xərcləri idi. Bəli, görülmüş işlərlə bağlı ictimaiyyətə vaxtaşırı məlumat verilirdi, paradlar keçirilirdi, mənim müxtəlif görüşlərim işıqlandırılırdı. Amma biz görülmüş bütün işləri təqdim edə bilmirdik. Çünki bunlar, əlbəttə, məxfi xarakter daşıyırdı. Amma müharibə zamanı göstərdik.

**Futbolçu:** Hamımız təşəkkür edirik. Hamımız çalışırdıq xidmət edək, hərbçi kimi olmasa da, idmançı kimi çalışdıq ki, Qarabağa xidmət edək. Biz beynəlxalq oyunlarda həmişə bir az məğlub kimi idik, amma indi fərqli çıxış etməyə çalışırıq.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, artıq biz bundan sonra qalib xalq kimi əbədi yaşayacağıq.

**Anar QULİYEV:** Cənab Prezident, Füzuli şəhərinin işğaldan əvvəl məskunlaşma ərazisi bu xəritədə tünd rənglə göstərilib. İndi artıq 397 hektar təşkil edir. Yeni baş plana görə artıq bu sarı rənglərlə göstərilmiş ərazi, o cümlədən hava limanı daxil olmaqla, 1936 hektar təşkil edəcək. Şəhər, ümumiyyətlə, 50 min nəfər üçün planlaşdırılır. Yəni hesabat dövrünə - 2040-cı ilə 50 min nəfərlik şəhər olacaq.

**Prezident İlham ƏLİYEV:** Torpaq da yaxşı, münbit torpaqdır. İndi aparılan şum, səpin, əkin o məqsədi güdür ki, vaxt itirməyək, bu torpağı artıq diriliyə gətirək. Ona görə camaat qayıdandan sonra əlbəttə ki, yenidən bölgü aparılacaq. Bir də ki, burada həyətyanı torpaqlar da nəzərdə tutulur, mənə məruzə edildi. Kəndlərdə hər bir evin təqribən ən azı 12 sot torpağı olacaq.

**Anar QULİYEV:** "Ağıllı şəhər" yanaşması təbii ki, burada həm ağıllı idarəetməni, həm də müasir texnologiya üzrə peşəkar kadrlar hazırlanmasını nəzərdə tutur. Ağıllı cəmiyyət, sağlam ətraf mühit, həyat tərzi, nəqliyyat və rabitə, rəqəmsal əsaslı şəbəkələr qlobal miqyasda yeni yanaşmadır. Çalışacağıq burada sağlam ətraf mühit, parklar, çoxlu yaşıllıq olsun.

**Prezident İlham ƏLİYEV:** Burada ictimai zonalar - gəzinti, velosiped yolları çox olacaq.

**Anar QULİYEV:** Bəli, cənab Prezident. Burada az və ortamərtəbəli çoxmənzilli binalar inşa ediləcək. Daha sonra həyətyanı bağ sahələri olan fərdi evlər tikiləcək. Şimal hissədən nəqliyyat dəhlizi, avtomobil yolları, dəmir yolları çəkiləcək, aeroport artıq tikilib. Ona görə yaşayış hissəsini biz şəhərin sol tərəfinə daha çox yerləşdirdik və aeroporta yaxın ərazilər daha çox məşğulluq yerləri olacaq. Burada sənaye parkı, logistika parkı var. Şəhərdə həmçinin ekopark yaradılacaq. Şəhər ətrafında çox böyük ərazidə meşə zolaqları da olacaq. Avtovağzal, dəmir yolu vağzalı şəhərin girəcəyində yerləşəcək. Gələcəkdə böyük bir idman zonasının yaradılması, stadionun tikilməsi planlaşdırılır.

Məşğulluğa gəldikdə burada nəqliyyat-logistika əsas sahə olacaq. Əsasən sənaye, yüngül sənaye və təbii ki, turizm.

**Sakin:** Cənab Prezident, 500-dən artıq iş yeri yaradılıb.

**Prezident İlham ƏLİYEV:** Daimi?

**Sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Bu işlərə Füzulidən olan gənclər, insanlar cəlb edilsin.

**Anar QULİYEV:** Avtomobil yolları 46 kilometr təşkil edəcək. Piyada, velosiped yolları 85 kilometr. Məsələn, avtomobil yolları tamamilə ayrılacaq, ayrıca zolaqla ancaq piyada, velosipedlə hərəkət üçün şərait təmin olunacaq.

**Prezident İlham ƏLİYEV:** Ekoloji, təmiz şəhər nəqliyyatı.

**Anar QULİYEV:** Bəli, bu, prioritetlərimizdən birincisidir.

**Prezident İlham ƏLİYEV:** İndi böyük xəstəxananın layihəsi hazırlanır. Yaxın həftələrdə mənə təqdim ediləcək.

**İdmançı:** İnşallah, Füzulidə böyük idman kompleksləri olacaq.

**Prezident İlham ƏLİYEV:** Sözsüz. Olimpiya İdman Kompleksi mütləq yaradılacaq.

**İdmançı:** Çox təşəkkür edirik, sağ olun.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının təməl daşını qoyublar.

* * *

Sonda xatirə şəkilləri çəkdirildi.

### Füzuli Memorial Kompleksinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

#### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Füzuli Memorial Kompleksinin (Füzuli İşğal Muzeyi və Memorial Parkı, Füzuli Zəfər Muzeyi, Füzuli Zəfər Abidəsi və Füzuli Bayraq Meydanı) layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2021-ci il*

# Azərbaycan ilə Qətər arasında iqtisadi və ticarət sahələrində əməkdaşlığın genişləndirilməsi vacibdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Qətər dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri, Qətər-Azərbaycan Hökumətlərarası Komissiyanın həmsədri Məhəmməd bin Əbdülrəhman Al Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq Qətər dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taninin salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırdı.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Qətər arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Qətər dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Al Taninin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin və regional məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirildi. Eyni zamanda Bakıda keçiriləcək birgə hökumətlərarası komissiyanın iclasının əhəmiyyətinə toxunularaq, iqtisadi və ticarət sahələrində əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı ticarətin həcminin artırılmasının vacibliyi vurğulandı. Qarşılıqlı investisiya, eyni zamanda üçüncü ölkələrə investisiya qoyuluşu üçün böyük potensialın olduğu qeyd edildi.

Söhbət zamanı həmçinin postpandemiya dövründə turizm sahəsində əməkdaşlığın perspektivləri də müzakirə olundu.

# Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri bütün istiqamətlərdə uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat Bilgini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Vedat Bilgin Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi. Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olunaraq, Türkiyə Respublikasının əmək və sosial müdafiə nazirinin səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Görüşdə digər sahələrdə olduğu kimi, sosial çalışma sahəsində də yaxşı iş birliyinin mövcud olduğu vurğulanaraq, bu sahədə təcrübə mübadiləsinin əhəmiyyətinə toxunuldu. Eyni zamanda əmək bazarının tənzimlənməsi, Türkiyədə çalışan Azərbaycan vətəndaşlarının, Azərbaycanda çalışan Türkiyə vətəndaşlarının sosial müdafiəsi məsələlərinin müzakirəsinin də önəmi qeyd olundu.

# Milli Məclisin Sədri Sahibə Qafarova NATO nümayəndə heyəti ilə görüşüb

Oktyabrın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova NATO baş katibinin siyasi və təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini, Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin Sədri qonaqları salamlayaraq, Azərbaycanın NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramında fəal iştirak etdiyini söyləyib. Deyib ki, ötən müddət ərzində əməkdaşlığımız uğurla inkişaf edib. Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan beynəlxalq sülhün qorunmasına öz töhfəsini verir, təşkilata assosiativ üzv kimi NATO-nun sülhyaratma missiyalarında fəal iştirak edir. Azərbaycan Prezidentinin vurğuladığı kimi, NATO-nun sülhməramlı əməliyyatlarında iştirak əməkdaşlığımızın mühüm tərkib hissəsidir. Bu baxımdan NATO əsgərləri ilə çiyin-çiyinə Əfqanıstanda azərbaycanlı əsgərlərin son günədək xidmətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan NATO-nun Qadınlar, sülh və təhlükəsizlik proqramı çərçivəsində də fəaldır.

Azərbaycan Milli Məclisinin NATO Parlament Assambleyası ilə əlaqələri haqqında danışan Sahibə Qafarova deyib ki, təşkilatla sıx əməkdaşlığımız mövcuddur. Milli Məclisin nümayəndə heyəti təşkilatın sessiyalarında və seminarlarında iştirak edir.

Görüşdə Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi Zəfər barədə məlumat verən Milli Məclisin Sədri bildirib ki, 30 ilə yaxın müddətdə Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayıb. Ötən il Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu öz gücünə torpaqlarını işğaldan azad edərək, BMT Təhlükəsizlik Şurasının bu məsələ ilə bağlı qətnamələrini həyata keçirib. S.Qafarova deyib ki, bu gün artıq Qarabağ münaqişəsi tarixə qovuşub. Ölkəmiz hazırda Qarabağda quruculuq və bərpa işləri aparır, hava limanları, yollar, körpülər, digər infrastruktur obyektləri qurur. Azərbaycan regionda sülh və əmin-amanlığın bərpa olunmasını istəyir. Ermənistan isə yenə təxribatlara əl atmaqda davam edir. O deyib ki, 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır.

Söhbətdə Azərbaycana ilk dəfə səfər etdiyini söyləyən NATO baş katibinin siyasi və təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini, Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina Milli Məclisin sədrinə Müstəqilliyin Bərpası Günü münasibətilə təbriklərini çatdırıb, ölkəmizdə gördüyü inkişafdan məmnunluğunu ifadə edib. O bildirib ki, pandemiya səbəbindən səfərlərin həyata keçirilməsində çətinliklər yaransa da, onun regiona bu səfəri NATO baş katibinin tapşırığı ilə həyata keçirilir. Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində iştirakına görə təşəkkür edən qonaq təşkilata assosiativ üzv olan Azərbaycanla əməkdaşlığa böyük önəm verildiyini diqqətə çatdırıb. O, Azərbaycanla təmsil etdiyi qurum arasında münasibətləri yüksək dəyərləndirib.

Görüşdə Milli Məclisin NATO PA-da nümayəndə heyətinin başçısı, parlamentin komitə sədri Ziyafət Əsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycanla Qətər arasında müxtəlif sahələrdə əlaqələrin gücləndirilməsi müzakirə edilib

Oktyabrın 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Qətər dövlətinin Baş nazirinin müavini və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Al-Tani ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, hər iki tərəfdən geniştərkibli nümayəndə heyətlərinin iştirak etdiyi görüşdə Azərbaycan Respublikası ilə Qətər dövləti arasında ikitərəfli əməkdaşlıq gündəliyi üzrə, habelə regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qarşı tərəfi səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov Azərbaycanın Qətərlə münasibətlərin inkişafına böyük önəm verdiyini qeyd edib, ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoqu məmnunluqla vurğulayıb. Həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə dostluq və əməkdaşlıq əlaqələrini bölüşdüyümüzü bildirən nazir Ceyhun Bayramov keçmiş münaqişənin həlli ilə bağlı Qətərin Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyinə verdiyi davamlı dəstəyinə görə təşəkkürünü ifadə edib.

Qətər dövlətinin Baş nazirinin müavini və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Al-Tani Azərbaycan Prezidenti ilə görüşünün çox məhsuldar keçdiyini qeyd edib. O, Azərbaycan üçün çox önəmli bir gündə ölkəmizdə olmaqdan məmnunluğunu bildirib və Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 30-cu ildönümü münasibətilə səmimi təbriklərini çatdırıb. Qətərin Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək nazir Şeyx Məhəmməd bin Əbdülrəhman Al-Tani tərəfindən bir daha səsləndirilib.

Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan cari vəziyyət, o cümlədən münaqişədən sonra bölgədəki inkişaf, üçtərəfli bəyanatların yerinə yetirilməsi və bu xüsusda Azərbaycan tərəfindən görülən tədbirlər, eləcə də 30 ilə yaxın davam edən işğal zamanı Azərbaycan ərazilərində Ermənistan tərəfindən törədilən sistemli dağıntılar, tarixi, mədəni və dini irsimizin izlərinin silinməsi cəhdləri, qeyri-qanuni fəaliyyət, ərazilərin minalarla kütləvi şəkildə çirkləndirilməsi və sair haqqında ətraflı məlumat verib. Azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən aparılan bərpa və quruculuq işləri barədə qarşı tərəf məlumatlandırılıb.

Görüşdə tərəflər iki ölkə arasında iqtisadi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, habelə alternativ enerji, nəqliyyat bağlılığı, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və mövcud potensialdan istifadə edilməsi məsələlərini müzakirə ediblər. Səfər çərçivəsində Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında Birgə iqtisadi, ticarət və texniki komissiyanın iclasının keçirilməsinin ikitərəfli iqtisadi əlaqələrin inkişafına müsbət töhfə verəcəyi qeyd edilib.

Sonda nazirlər "Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında ümumvətəndaş pasportlarına malik şəxslərin viza tələbindən azad edilməsi haqqında sazişi" imzalayıblar.

# Azərbaycan ilə Qətər arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın 3-cü iclası keçirilib

Oktyabrın 18-də Fövqəladə Hallar Nazirliyində (FHN) Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın 3-cü iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və Qətər dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Al Tani, eləcə də komissiyanın hər iki tərəfdən üzvləri iştirak ediblər.

Tədbir iştirakçılarını səmimiyyətlə salamlayan nazir Kəmaləddin Heydərov iclasın Azərbaycan üçün əlamətdar günə - Müstəqilliyin Bərpası Gününə təsadüf etdiyini və ilk dəfə bu bayramın ərazi bütövlüyünü bərpa etmiş qalib xalq tərəfindən qeyd edildiyini diqqətə çatdırıb.

Nazir bildirib ki, Azərbaycan ilə Qətər arasında 1994-cü ildə əsası qoyulmuş diplomatik münasibətlərin bu gün yüksək səviyyədə olması, ölkələrimizin mühüm məsələlərin həllində daim bir-birilərini dəstəkləməsi, habelə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı hər iki ölkənin mənafeyinə cavab verir. Azərbaycan ilə Qətər arasında müxtəlif sahələri əhatə edən yüksəksəviyyəli əməkdaşlıq münasibətlərinin əsasında hər iki ölkə liderlərinin siyasi iradəsinin və müdrik uzaqgörənliyinin dayandığını bildirən nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taninin birgə qərarı əsasında yaradılmış Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın fəaliyyəti dövrü ərzində ikitərəfli münasibətlərin bir çox istiqamətlərində inkişaf dinamikasının müşahidə olunduğunu vurğulayıb. Komissiyanın yaradıldığı vaxtdan ötən dövr ərzində görülən işlərdən danışan nazir ölkələrimiz arasında çoxşaxəli əlaqələrin daha da genişləndirilməsi üçün qarşılıqlı səylərin davam etdiriləcəyinə əminliyini bildirib.

Nazir həmçinin 44 gün davam etmiş Vətən müharibəsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında qəhrəman ordumuz tərəfindən 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsi barədə məlumat verib. Azad olunmuş ərazilərdə hazırda sürətlə davam edən abadlıq və quruculuq işlərindən danışan Kəmaləddin Heydərov Qətər iş adamlarını, biznes dairələrini və sərmayəçilərini həmin ərazilərə sərmayə yatırmağa dəvət edib.

Bundan başqa, 2021-ci il iyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulmuş Ələt Azad İqtisadi Zonası barədə məlumat verən nazir Kəmaləddin Heydərov Qətərin biznes dairələri və xüsusilə sənaye sahəsini əhatə edən sərmayəçiləri üçün burada həyata keçirilən layihələrdə iştirakın maraqlı olacağına əminliyini ifadə edib.

Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın həmsədri olan Qətərin Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Al Tani səmimi görüşə görə təşəkkürünü bildirib, Müstəqilliyin Bərpası Günü münasibətilə təbriklərini çatdırıb.

Qonaq Birgə komissiyanın gördüyü işlərin əhəmiyyətini qeyd edərək, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin, o cümlədən iqtisadiyyat, ticarət, investisiya və turizm sahələrində işgüzar münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu, bu imkanlardan qarşılıqlı faydalı əsasda yararlanmaq üçün səylərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb. O, iki ölkə liderlərinin müdrik qərarlarına və siyasi iradəsinə söykənərək ölkələrimiz arasında çoxşaxəli əlaqələrin daha da genişləndirilməsi baxımından komissiyanın üzərinə düşən vəzifələrin bundan sonra da uğurla yerinə yetiriləcəyinə əmin olduğunu bildirib.

İclasda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, komissiya üzvlərinin fikir və təklifləri dinlənilib, müzakirələr aparılıb.

İclasın sonunda "Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın üçüncü iclasının Protokolu" imzalanıb. Protokolu komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Qətər dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Al Tani imzalayıblar.

# *Qətərin Baş nazirinin müavini:* "Qətər hər zaman beynəlxalq təşkilatlarda Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib"

Oktyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ölkəmizdə səfərdə olan Qətər dövlətinin Baş nazirinin müavini və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Al-Tani ilə birgə brifinqi keçirilib.



AZƏRTAC xəbər verir ki, Şeyx Məhəmməd bin Əbdülrəhman Al-Taninin ölkəsinin Azərbaycanla əlaqələrinin genişlənməsinə böyük diqqət göstərdiyini söyləyib. O, Qətər dövləti adından Azərbaycan Respublikasını və xalqını 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə təbrik edib. Bu əlamətdar gündə ölkəmizə inkişaf və suverenlik arzulayıb.

O, qeyd edib ki, Qətər Azərbaycan ilə siyasi, iqtisadi, ticarət və digər sahələrdə əlaqələrin inkişafında maraqlıdır. İki ölkə arasında diplomatik əlaqələr 1994-cü ildə qurulub. 2016-cı ildə ölkələrimiz arasında qardaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dair saziş imzalanıb.

"Bu gün Azərbaycanın xarici işlər naziri ilə görüşdə bir çox sahələrdə əməkdaşlıq əlaqələrini müzakirə etdik. Həmçinin siyasi, diplomatik və iqtisadi sahələrdə iki ölkə arasında əldə olunmuş nailiyyətlərə toxunduq və fikir mübadiləsi apardıq. Bundan əlavə, regionun əmin-amanlığı və sabitliyinin əhəmiyyətini vurğuladıq. Eyni zamanda regionda cərəyan edən hadisələr barədə danışdıq. Regionda siyasi dialoqun aparılması Qətərin xarici siyasətində prioritet təşkil edir", - deyə Məhəmməd bin Əbdülrəhman Al-Tani diqqətə çatdırıb.

Qətər ilə Azərbaycan arasında çox möhkəm zəmin üzərində qurulan münasibətlərin, yüksəksəviyyəli siyasi dialoqun mövcud olduğunu söyləyən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov isə bildirib: "Qətərli həmkarımla görüşdə ikitərəfli əlaqələrin gündəliyi, əməkdaşlıq məsələlərini müzakirə etdik. İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası və BMT çərçivəsində ölkələrimiz arasında faydalı əməkdaşlıq var. Görüş zamanı bu əməkdaşlığın detalları müzakirə olundu. Ölkələrimiz arasındakı iqtisadi, investisiya, ticarət əlaqələri və onların perspektivləri barədə geniş müzakirələr aparıldı. Hesab edirik ki, həm ticarət dövriyyəsinin artırılması, həm də ölkələrimizin qarşılıqlı və birgə üçüncü dövlətlərə investisiya imkanları çox vacibdir. Bu sahədə danışıqlar aparılır. Ənənəvi istiqamətlərdən başqa, alternativ enerji sahəsi və onun inkişafı barədə də fikir mübadiləsi aparıldı. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərində Qətər dövlətindən olan investorların cəlb edilməsi potensialı müzakirə olundu. Pandemiya ilə əlaqədar məhdudiyyətlərdən əvvəl ölkələrimiz arasında turizm sahəsində çox yaxşı artan tendensiyalar mövcud idi. Düşünürük ki, bu məhdudiyyətlər aradan qaldırıldıqca çox qısa müddətdə bu istiqamətdə daha yüksək nəticələr əldə olunacaq. Bu baxımdan bu gün imzalanmış "Azərbaycan Respublikası hökuməti ilə Qətər dövləti hökuməti arasında ümumvətəndaş pasportlarına malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında" sazişin çox böyük əhəmiyyəti var".

Qətərin hər zaman beynəlxalq təşkilatlarda Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyini söyləyən Ceyhun Bayramov həmkarına keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, onun aspektləri, 44 günlük Vətən müharibəsi və nəticələri, üçtərəfli bəyanatlar, işğaldan azad olunmuş ərazilərin və dağıntıların miqyası, Azərbaycanın apardığı quruculuq işləri, mina təhlükəsi barədə geniş məlumat verdiyini bildirib. Nazir regionda kommunikasiyaların açılmasının vacibliyi, bununla bağlı məhdudiyyətlərin aradan götürülməsi, Azərbaycan tərəfinin bu məsələdə konstruktiv mövqeyi barədə həmkarını məlumatlandırdığını deyib. O, hazırda konkret nəticələrin əldə edilməməsinin təəssüf doğurduğunu, bunun, eyni zamanda bölgədə normallaşma prosesinin ləngiməsinə səbəb olduğunu vurğulayıb.

# *Jil KARBONYE:* "Yaxın Şərq bölgəsindən vətəndaşlarının qaytarılması istiqamətində Azərbaycanın gördüyü işlər təqdirəlayiqdir"

Oktyabrın 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) vitse-prezidenti Jil Karbonyenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə xarici işlər naziri Ceyhun Bayramov ölkəmizin BQXK ilə faydalı əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edib. Son bir il ərzində qarşı tərəflə bir sıra görüşlərin, o cümlədən BQXK-nin Cenevrə ofisində, habelə beynəlxalq platformalar çərçivəsində keçirilmiş görüşlərin bunun bariz nümunəsi olduğunu bildirib. Ölkəmizin BQXK-nin beynəlxalq hüquqa və BMT-nin müvafiq qətnaməsinə uyğun olaraq Azərbaycan ərazisindəki humanitar missiyasının həyata keçirilməsinə hər zaman dəstək verdiyi vurğulanıb və bu xüsusda qarşı tərəflə dialoqun davam etdirilməsinin əhəmiyyəti bildirilib.

Ceyhun Bayramov qarşı tərəfə bölgədə münaqişədən sonra yaranmış yeni reallıqlar və Azərbaycan tərəfindən 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə əlaqədar həyata keçirilən konkret tədbirlər barədə ətraflı məlumat verib.

BQXK-nin vitse-prezidenti Jil Karbonye Azərbaycan hökuməti tərəfindən təşkilatın fəaliyyətinə göstərilən dəstəyə və əməkdaşlığa görə məmnunluğunu ifadə edib. Bölgədəki yeni reallıqları nəzərə alaraq mövcud humanitar prioritetlər əsasında qarşılıqlı fəaliyyətin davam etdirilməsinin vacibliyi vurğulanıb. Vitse-prezident hazırkı mərhələdə Azərbaycan tərəfi ilə erkən bərpa, sağlamlıq, tibb işçilərinin təlimi, habelə humanitar fəaliyyətə yeni texnologiyaların cəlb edilməsi və digər istiqamətlərdə fəaliyyətin həyata keçirilməsindən bəhs edib. O, həmçinin Yaxın Şərq bölgəsindən Azərbaycan əsilli vətəndaşlarının, xüsusilə qadın və uşaqların qaytarılması istiqamətində ölkəmiz tərəfindən görülən işlərin təqdirəlayiq olduğunu bildirib.

Nazir Ceyhun Bayramov itkin düşmüş azərbaycanlılar barədə məlumatın əldə edilməsinin ölkəmiz üçün əhəmiyyət kəsb etdiyini söyləyib və bu xüsusda BQXK-nin hələ Birinci Qarabağ müharibəsindən itkin düşmüş şəxslər barədə məlumatın toplanması istiqamətində gördüyü işlərin yüksək qiymətləndirildiyini qeyd edib.

Tərəflər həmçinin BQXK-nin bölgədəki humanitar missiyası ətrafında fikir mübadiləsi aparıblar.



# Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! 30

# Müstəqillik zirvəsi

## Müasir, qüdrətli və qalib Azərbaycan reallığı

Bəşəriyyət tarixinin ayrı-ayrı dövrlərinə nəzər saldıqda görürük ki, hər bir mərhələdə xalqların milli mübarizəsinin əsas motivi və hədəfi müstəqillik qazanmaq, onu daimi etmək - qoruyub saxlamaq, güclü dövlət qurmaqdır. Bir çox xalqlar bu məqsədə nail olmuş, tarix və siyasət səhnəsində layiqli yer tutaraq özünəməxsus inkişaf yolunda addımlamaq hədəfinə çatmışlar. Lakin tarixin siyasi arxivə çevrilmiş bəzi səhifələri müstəqillik uğrunda və yolunda mücadilə aparmış bir sıra xalqların uğursuzluq nümunələri ilə zəngindir. Xalqın istiqlal ideyası və iddiasının boğulması, qazanılmış müstəqilliyin sonradan itirilməsi, suverenliyin bərpa oluna bilməməsi kimi hallar bu qəbildən olan nümunələr sırasında yer alır.

Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının isə istiqlal ideyasının izində - müstəqillik məfkurəsi uğrunda milli mübarizəsi həm rəngarəng, həm keşməkeşli, həm də şərəfli və qürurlu anlarla, tarixi məqamlarla zəngindir. Bir əsrdə iki dəfə istiqlaliyyətə qovuşmağa müvəffəq olmuş xalqımızın birinci müstəqil dövlətçilik təcrübəsi 1918-1920-ci illər aralığında 23 aylıq dövrü əhatə etsə də, Şərqdə ilk demokratik respublika və müsəlman dünyasında ilk dünyəvi dövlət qurmağa nail olmaq tarixin ictimai-siyasi yaddaşına əbədi həkk olunmaq deməkdir. Bu, həmçinin xalqımızın tarixi və milli-siyasi sərvəti, gələcək nəsillərə ötürülən tükənməz mirasıdır. Ən mühüm və milli iftixar mənbəyi qismində çıxış edən müstəsna strateji və mənəvi-siyasi hadisə isə XX yüzilliyin sonunda müstəqilliyi bərpa etmək, onun daimiliyinə, dönməzliyinə və əbədiliyinə müvəffəq olmaqdır.

### Gerçək müstəqilliyin qazanılması və milli tərəqqi yolunda inamlı addımlar

XXI əsrdə müstəqillik, suverenlik anlayışları fərqli məzmun və mahiyyət kəsb edir. Kağız üzərində, hüquqi cəhətdən, formal (de-yure) müstəqilliyə malik olan ölkələr heç də həmişə suveren dövlət kimi səciyyələndirilmir. Suverenlik, əsas etibarilə, müstəqil siyasət həyata keçirmək, daxili və xarici siyasətdə hakim, üstün iradəyə və mövqeyə sahib olmaq, qlobal arenada beynəlxalq proseslərə təsir imkanlarına malik olmaq qabiliyyəti ilə ölçülür.

Azərbaycanın müstəqilliyinin bərpası 1991-ci ilin 18 oktyabr tarixində elan edilsə də, formal xarakter daşıyırdı. Yəni kağız üzərində - hüquqi cəhətdən müstəqillik bəyan olunmuşdu, lakin faktiki suverenlikdən söhbət gedə bilməzdi. Çünki həmin dövrdə Azərbaycan müstəqil siyasət həyata keçirmir, ayrı-ayrı regional güc mərkəzlərinin diktəsi ilə və təsiri altında hərəkət edir, bölgədə və dünyada cərəyan edən geosiyasi və geoiqtisadi proseslərdə fəal iştirak edə bilmirdi. Ölkədaxili siyasi proseslərin xarici qüvvələrin ssenariləri və planları əsasında cərəyan etməsi isə Azərbaycanın öz milli maraqlarını qoruya bilməyən zəif dövlət kimi tənəzzülünü, xaos, anarxiya və böhran şəraitində çöküşünü şərtləndirirdi. Vətəndaş qarşıdurması ilə üzləşən, regiondakı proseslərdən təcrid durumuna düşərək siyasi autsaydera çevrilən Azərbaycan üçün bütün yolların geosiyasi iflasa aparması isə formal xarakter daşıyan müstəqilliyin itirilməsi təhlükəsinin yaranması demək idi. Bu mürəkkəb şərait və şərtlər fonunda torpaqlarımızın Ermənistan tərəfindən ard-arda işğal edilməsi isə növbəti milli facia və fəlakətlərə yol açırdı. Belə olan halda "ya olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan xalqı düzgün mənəvi-siyasi seçim etməklə təkcə ölkənin xilasına, intibah, inkişaf, rifah və tərəqqi yoluna çıxmasına deyil, eyni zamanda respublikamızın əsl müstəqillik qazanmasına nail oldu. Söhbət zəngin dövlətçilik təcrübəsinə malik olan, Azərbaycan xalqı, dövləti qarşısında misilsiz xidmətlər göstərmiş, müxtəlif rəhbər vəzifələrdə fəaliyyəti zamanı vətənpərvərlik və millilik nümunəsi yaratmış Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gəlməsindən, ölkəmizi siyasi təlatümlərdən, iqtisadi böhrandan, regional təcrid vəziyyətindən xilas edərək tərəqqi yoluna çıxarmasından, güclü - qüdrətli və nüfuzlu dövlətə çevirməsindən gedir.

Əlbəttə, xalqın Heydər Əliyevə dərin inamı və böyük ümidi təsadüfi deyildi, reallıqlara əsaslanırdı, Ulu Öndərin xalqımız qarşısındakı tarixi xidmətlərindən qaynaqlanırdı. Ümummilli Lider o zamana qədər fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın inkişafına, milli həmrəyliyin təmin olunmasına, dövlət maraqlarının qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görmüş, böyük tarixi nailiyyətlərə imza atmışdı. 1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Ümummilli Lider Heydər Əliyev hələ SSRİ dövründə milli-mənəvi dəyərlərimizin, dilimizin qorunub saxlanılması, respublikamızın perspektiv inkişafı üçün möhkəm təməllər yaratmağa müvəffəq olmuşdu. 1969-cu ildən başlayan böyük inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsaslarını yaratmışdı. Ümummilli Lider Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Sovetinin Sədri seçildikdən sonra atdığı addımlar da xalqımızın gələcəyə yeni və mütərəqqi baxışının formalaşmasında, müstəqillik ideyasının əxz olunmasında və mənimsənilməsində, milli həmrəyliyin təmin edilməsində xüsusi rol oynamışdı. 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısının Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi, Ümummilli Liderin ziyalılara göndərdiyi cavab məktubunda partiyanın yaradılmasına və ona rəhbərlik etməyə razılıq verməsi də müasir Azərbaycanın inkişaf yoluna çıxmasına, xalqımızın parlaq gələcəyinin formalaşdırılmasına zəmin yaratmışdı. Ümummilli Lider Heydər Əliyev zəngin dövlətçilik və idarəetmə təcrübəsinə malik olan təcrübəli şəxsiyyət kimi Azərbaycanın qarşısında duran strateji vəzifələri çox yaxşı bilirdi və buna görə də dövrün reallıqları, qanunauyğunluqları, milli və qlobal çağırışları əsasında inkişaf paradiqmalarını olduqca dəqiq müəyyənləşdirdi. Milli maraqlardan irəli gələn strateji vəzifələrin uğurla reallaşdırılması nəticəsində Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkəyə çevrildi, yaxud de-fakto müstəqillik təmin olundu. Sabitlik və təhlükəsizliyin təmin olunması, xarici dövlətlər və şirkətlərlə qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın qurulması, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi, beynəlxalq təşkilatlarda fəallığın təmin olunması və digər mühüm addımlar Azərbaycanın regionda yerinin möhkəmlənməsini, rolunun artmasını, qlobal siyasi arenada isə imkanlarının genişlənməsini təmin etdi. Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevrildi, istər regional, istərsə də qlobal məsələlərdə respublikamızın mövqeyi nəzərə alınmağa başlandı. Beynəlxalq ictimai rəydə Azərbaycan haqqında müstəqil və milli maraqlara əsaslanan siyasət həyata keçirən, güclü və xarizmatik lideri olan, ümummilli məsələlərdə prinsipial mövqedən çıxış edən qüdrətli dövlət obrazı formalaşdı. Beləliklə, Azərbaycanın dostlarının və tərəfdaşlarının sayı artdı, strateji əlaqələri gücləndirildi ki, bu da ölkəmizə prinsipial milli məsələlərdə, o cümlədən artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində beynəlxalq müstəvidə mənəvi-siyasi dəstək verilməsi baxımından mühüm amil oldu.

Beləliklə, Ulu Öndərin əsl müstəqillik qazanmaq, dövlətçilik ənənələrini bərpa etmək və inkişafa nail olaraq sabaha inamla addımlamaq missiyasını öz üzərinə götürməsi ilə Qurtuluşdan tərəqqiyə, tərəqqidən Zəfərə aparan yolun əsası qoyuldu. Müstəqillik dövrünün sabitlik və inkişaf mərhələsi kimi səciyyələndirilən 1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi ilə görülən işlər milli-strateji hədəflərə çatmağa imkan verməklə yanaşı, yeni Azərbaycanın parlaq gələcəyini inşa etdi. Bütövlükdə, Azərbaycan tarixinin müstəqillik zirvəsi bilavasitə Ümummilli Liderin adı, siyasəti və ideyaları ilə bağlıdır. Heydər Əliyev siyasəti çoxəsrlik tarixə əsaslanan milli dövlətçiliyimizin və dövlət müstəqilliyimizin inkişaf salnaməsidir.

### Siyasi varisliyin təmin olunması - Heydər Əliyev ideyalarının təntənəsi

Ulu Öndər həmçinin siyasi varisliyi təmin etməklə Azərbaycanın müstəqil dövlətçilik ənənəsinin qorunmasına - ölkəmizin suveren dövlət kimi davamlı inkişafına müstəsna töhfələr verib. Bu gün Azərbaycanın inamlı, dinamik və dayanıqlı inkişafı, müstəqilliyini möhkəmləndirərək yeni strateji zirvələr fəth etməsi Heydər Əliyev siyasətini yeni müstəvidə davam etdirən dünya şöhrətli siyasətçi cənab İlham Əliyevin adı ilə bağlıdır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin adı və fəaliyyəti həm daxili, həm də beynəlxalq ictimai rəydə milli tərəqqi anlayışı ilə assosiasiya olunur. Ona görə ki, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 18 ildə Azərbaycan inkişafın zirvəsinə çataraq tərəqqiyə nail olub, nümunəvi iqtisadi inkişaf modeli ilə dünyanın diqqətini özünə cəlb edib. Heç də təsadüfi deyil ki, dünyanın prestijli analitikləri, nüfuzlu ekspertləri və mötəbər strateji tədqiqat mərkəzləri, aparıcı reytinq institutları Azərbaycanın inkişaf modelini mütərəqqi nümunə kimi səciyyələndirir və ölkəmizin gələcəyinə dair pozitiv rəy, nikbin proqnoz ifadə edirlər. Bu isə müstəqil ölkəmizin gələcəyinə obyektiv baxışın, yaxud Azərbaycan reallığının ifadəsidir.

### Xalq-Lider birliyi - müstəqilliyin qarantı

Prezident İlham Əliyev dövlət müstəqilliyini milli-siyasi sərvət, onun qorunmasını isə strateji vəzifə kimi dəyərləndirir. Dövlət başçısı *"Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm"* deyə bildirib. Heç şübhəsiz, onun uğurlu fəaliyyəti dövlətçilik ənənələrinin qorunmasını, tarixi dəyərlərlə müasir çağırışların uzlaşdırılmasını təmin etməklə dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət göstərir. Bu kontekstdə bir sıra mühüm məqamlara xüsusi nəzər salmaq məqsədəmüvafiq olar:

- Azərbaycan cənab İlham Əliyevin liderliyi ilə sabitlik adasına, təhlükəsizlik məkanına, inkişaf diyarına çevrilib. XXI əsrdə dünyanın bir sıra ölkələrində çevrilişlərlə, inqilablarla müşayiət olunan xaos və anarxiya halları, sosial-iqtisadi və siyasi kataklizmlər müşahidə edilib. Həmin ölkələrin bir çoxu hələ də tənəzzül və böhrandan xilas ola bilməyiblər, yeni müstəmləkəyə və qarşıdurma məkanına çevriliblər. Azərbaycan reallığı isə fərqlidir. Ölkəmizdə sabitliyin təminatçısı xalq-iqtidar birliyi, liderin xalqın maraqlarına, rifahına və mənafeyinə əsaslanan siyasəti, xalqın isə öz liderini qətiyyətlə dəstəkləməsidir. Prezident İlham Əliyev *"Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir"* deyə söyləyib. O da xüsusi olaraq vurğulanmalıdır ki, dünyada tolerantlıq nümunəsi, multikulturalizm ünvanı kimi səciyyələndirilən ölkəmizdə müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində mehriban birgəyaşayışa malikdirlər. Cəmiyyətin ahəngdar inkişafına, dövlətin isə qüdrətinin artmasına xidmət edən bu reallıq həm də milli həmrəyliyin təminatçısıdır. Azərbaycanın adının dünya siyasi tarixinə qalib ölkə kimi yazılmasını, tarixi ədalətin, milli ləyaqətin və milli qürurun bərpasını təmin edən 44 günlük Vətən müharibəsində qazanılmış qələbədə milli həmrəylik amilinin yeri və rolu müstəsnadır;
- Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini təmin edən mühüm faktorlardan biri inkişafın milli modelinin - yeni iqtisadi möcüzənin yaradılmasıdır. Son 18 ilin göstəriciləri makroiqtisadi sabitliyə nail olan Azərbaycanın innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan əsas hədəfləri uğurla reallaşdırdığını təsdiqləyir. Ümumi daxili məhsul (ÜDM) istehsalının artım göstəriciləri də bu reallığın ifadəsidir. Belə ki, Azərbaycanda sözügedən dövrdə müşahidə olunan ÜDM-nin 3,2 dəfəlik artımı dünya üzrə ən yaxşı göstəricilərdəndir. Digər mühüm faktor Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli olmasıdır. Son 18 ildə Azərbaycana daxili və xarici mənbələrdən 274 milyard dollar investisiya yönəldilməsi isə iqtisadi inkişafın davamlılığını təmin edən mühüm faktorlardan biridir. Azərbaycanın nümunəvi iqtisadi inkişaf modelinin mühüm komponentləri sırasında respublikamızın strateji valyuta ehtiyatlarının mütəmadi olaraq artması, son olaraq 51,2 milyard dollara çatması da xüsusi yer tutur. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycanın MDB məkanında birinci yerdə olması və digər faktlar, nailiyyətlər iqtisadi müstəqilliyi gücləndirən və beləliklə də, siyasi suverenliyin əsaslarını möhkəmləndirən amillərdəndir. Azərbaycan Prezidenti cənab İlham Əliyev *"Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır"*, - deyə vurğulayıb. Sadalananlarla yanaşı, mərkəzində Azərbaycan vətəndaşlarının rifahının və mənafeyinin dayandığı nümunəvi sosial siyasətin həyata keçirilməsi - vətəndaş məmnunluğunun artırılması, regionların sosial-iqtisadi konsepsiyasının uğurla reallaşdırılması və digər mühüm faktorlar ölkənin etibarlı və dayanıqlı müstəqillik zəminində sosial-iqtisadi yüksəlişinə əlavə təkan olub;
- Prezident İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycanın regional liderə - bölgədə güc mərkəzinə, dünya siyasətində qüdrətli və nüfuzlu milli subyektə çevrilməsinə səbəb olub. Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm nəqliyyat və enerji layihələrinin reallaşdırılması, üçtərəfli, dördtərəfli formatda əməkdaşlıq platformalarının yaradılması ölkəmizə mühüm iqtisadi mənfəət və siyasi dividendlər qazandırıb. Respublikamızın, həmçinin beynəlxalq təşkilatlarda uğurla təmsil olunması və sədrlik etməsi Azərbaycana, şəxsən cənab İlham Əliyevə olan böyük inam və etimadın ifadəsi, dövlətimizin geostrateji prestijinin göstəricisidir. Bununla yanaşı, nüfuzlu idman, mədəniyyət tədbirlərinin, qlobal humanitar və dini forumların, güc mərkəzlərinin səlahiyyətli şəxslərinin strateji görüşlərinin Azərbaycanda keçirilməsi ölkəmizin qarşıdurma və toqquşma deyil, dialoq və əməkdaşlıq məkanı - inteqrasiya platforması olduğunu, Şərq ilə Qərb arasında mənəvi-siyasi körpü yaradan respublikamızın sivilizasiyalararası dialoqa mühüm töhfələr vediyini təsdiqləyir. Bütün bu faktlar isə güclü - qüdrətli Azərbaycan imici, qürurlu vətəndaş obrazı və qətiyyətli lider imzasıdır!

Əlbəttə, Prezident İlham Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əsaslarının gücləndirilməsi ilə bağlı fəaliyyətindən bəhs edərkən bir çox məsələ və istiqamətlərə nəzər yetirmək olar və bu kontekstdə çoxsaylı nümunələr gətirmək mümkündür. Amma təkcə bu sadalananlar da deməyə əsas verir ki, Azərbaycan Prezidentinin müstəqil siyasəti daxili və xarici siyasətdə mühüm, tarixi nailiyyətlər qazanılmasını, yeni Azərbaycanın daimi yüksəlişini təmin edir.

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli, ali dəyərlərə, milli maraqlara əsaslanan fəaliyyəti Azərbaycanın tərəqqisinə, qarşıda duran strateji hədəflərə çatmağa əhəmiyyətli töhfədir. Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri əsasında reallaşdırılan layihələr Azərbaycan dövlətinin milli gücünün artmasında, müxtəlif sahələrdə davamlı uğurlar qazanılmasında, ən əsası, müstəqilliyimizin möhkəmləndirilməsində mühüm rola malikdir.





### Möhtəşəm Qələbə - xalqımızın çoxəsrlik dövlətçilik tarixinin şanlı qürur səhifəsi və zirvə hadisəsi

Həm müstəqillik dövrünün, həm də xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi - ən parlaq səhifəsi Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olunmasıdır. Bu, müstəsna siyasi hadisə və dövlətçilik tariximizdə bənzəri olmayan Zəfər salnaməsi - Qələbə dastanıdır, həmçinin Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir.

Mürəkkəb geosiyasi şəraitdə, dünya siyasətində toqquşan və kəsişən strateji maraqların fonunda Azərbaycanın torpaqlarının işğaldan azad edilməsinə müvəffəq olmaq sadə və sıradan məsələ deyil. Doğrudur, torpaqlarımız döyüş meydanında Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun erməni faşizmini məhv etməsi, işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunub. Lakin məsələnin mahiyyəti, məzmunu daha dərin və genişdir. Belə ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, rasional, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara müvafiq strateji kursun real - məntiqi nəticəsidir. Azərbaycanın hərbi gücünün, iqtisadi potensialının, qlobal arenada siyasi nüfuzunun və çəkisinin artması - beynəlxalq mövqeyinin möhkəmlənməsi ərazi bütövlüyünün bərpasında həlledici amil olub. Prezident İlham Əliyevin inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasəti sayəsində Azərbaycanın iqtisadi müstəqilliyi tam təmin edilib, ölkənin maliyyə imkanları genişlənib. Paralel olaraq ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra olunması, müasir standartlar və yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi Azərbaycanın öz milli maraqlarını, suverenliyini döyüş meydanında - hərb səhnəsində təmin etməsini mümkün edib. Bununla yanaşı, Azərbaycan öz hədəfinə - ərazi bütövlüyünün bərpasına doğru hücum xarakterli, dərin strateji diplomatiya siyasəti həyata keçirməklə irəliləyib. Nəticədə müasir beynəlxalq münasibətlər sistemində güclü dostluq və tərəfdaşlıq əlaqələri formalaşdırılması, sürətli - dinamik yüksəlişin təmin edilməsi Azərbaycanın haqq işində qətiyyətli və birmənalı mənəvi-siyasi dəstək qazanılması baxımından müstəsna əhəmiyyətə malik olub. Bütün bunlar isə Azərbaycana ərazi bütövlüyünün bərpası üçün çox mühüm üstünlüklər qazandırıb və son sözü döyüş meydanında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu deyib - *"Qarabağ Azərbaycandır!"* Bütün cəbhələrdə - istər hərb meydanında, istər diplomatiya müstəvisində, istərsə də informasiya platformasında tarixi qələbənin memarı - müəllifi olan Prezident İlham Əliyev Azərbaycanın möhtəşəm Zəfərini dəyərləndirərkən *"Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik"* deyə vurğulayıb.

Azərbaycanın təntənəli Zəfər yürüşünün uğurlu və möhtəşəm olmasını təmin edən ən mühüm amillərdən biri milli həmrəylik faktorudur. Ümumiyyətlə, müstəqillik dövrünün prosesləri və reallıqları təsdiqləyir ki, milli həmrəylik xalqımız, dövlətimiz üçün taleyüklü anlarda həlledici amil kimi çıxış edib. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər ərzində həmrəylik amili Azərbaycan dövlətinin milli gücünü artıran amillərdən biri olub. Prezident İlham Əliyevin milli maraqlara əsaslanan strateji kursunun nəticəsi olaraq xalqımızın həmrəyliyinin daha da gücləndirilməsi ölkəmiz üçün yeni perspektivlər açıb. Azərbaycançılıq ideologiyasının təbliği və təşviqi istiqamətində sistemli, məqsədyönlü tədbirlərin həyata keçirilməsi, paralel olaraq respublikamızda müxtəlif xalqların nümayəndələrinin sülh, sabitlik və təhlükəsizlik şəraitində yaşaması, gəncliyin milli ruhda və vətənpərvərlik hissləri əsasında tərbiyəsi, islahatlar nəticəsində siyasi qüvvələrin ümummilli məsələlərdə vahid platformada birləşməsinin təmin olunması və digər amillər milli birliyin əsaslarını gücləndirib. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial siyasətinə qətiyyətli dəstək göstərməsi, müxtəlif xalqların nümayəndələrinin yumruq kimi birləşərək döyüş meydanına atılması, gənclərin Vətənin bütövlüyü uğrunda mübarizəyə qatılması isə milli həmrəyliyin daha bir bariz nümunəsi olub. 44 günlük Zəfər yürüşünün nəticəsi olan möhtəşəm Qələbə Azərbaycan dövlətinin milli gücünü, xalqımızın isə mübarizə əzmini - sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirib!

### Regionda saatlar Bakı vaxtı ilə qurulur - şərtləri Azərbaycan diktə edir

Dünyanın hərb və siyasət tarixində xüsusi yer tutan, xalqımızın şanlı qəhrəmanlıq dastanı və Zəfər simvoluna çevrilən Vətən müharibəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpasını deyil, eyni zamanda istər Cənubi Qafqaz regionunda, istərsə də Avrasiyada yeni geostrateji reallıqların təşəkkülünə səbəb olub. Azərbaycan öz milli gücü, hərbi-siyasi resursları ilə işğal faktına son qoymaqla - münaqişəni və separatizm faktını aradan qaldırmaqla yeni təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşdırıb. Bu işbirliyi imkanları həm unikal, həm də universal xarakter daşıyır. Ona görə unikal ki, indiyə qədər Cənubi Qafqazda belə əməkdaşlıq və təhlükəsizlik imkanları yaradılmayıb. Ona görə universal ki, bu işbirliyi platforması təkcə bölgə xalqları və dövlətləri üçün deyil, bir çox dövlətlər, o cümlədən regional və beynəlxalq güc mərkəzləri üçün mühüm dividendlər vəd edir. Asiyadan Avropaya doğru uzanan geniş coğrafiyada mühüm geostrateji məntəqələrdən olan Cənubi Qafqaz bölgəsində yeni reallıqlar fonunda saatlar Bakı vaxtı ilə qurulur. Yeni şərtləri qalib və üstün tərəf olan Azərbaycan diktə edir. Paralel olaraq ölkəmiz tərəfindən irəli sürülən təşəbbüslər regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfə olmaqla yanaşı, Azərbaycanın qlobal arenada mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Xüsusilə də Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş formatda əməkdaşlıq imkanlarının formalaşması, Cənubi Qafqazın işbirliyi məkanına çevrilməsi deməkdir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpa olunması regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir. Xüsusən Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanından irəli gələn vəzifələrin icrası, iqtisadi potensialdan istifadə olunması milli inkişafın sürətlənməsinə təkan verəcək. Yeni bölgüyə əsasən 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının olması isə həm tarixi, həm mənəvi, həm iqtisadi, həm də siyasi baxımdan olduqca əhəmiyyətlidir.

### Yeni çağırışlar - uzunmüddətli, perspektiv strateji hədəflərə doğru

Bunlarla yanaşı, yeni reallıqlar ölkəmizin suverenliyinin qorunması və müstəqilliyin möhkəmləndirilməsi ilə bağlı bəzi çağırışların meydana çıxmasına səbəb olub və bu çağırışlara müvafiq addımların atılmasını zəruri edib. Bu kontekstdə ölkəmizin suverenliyi, dövlət müstəqilliyi və xalqımızın milli kimliyi ilə bağlı rəmzi hadisələrə yenidən sistemli və kompleks baxış ehtiyacının yaranması xüsusi vurğulanmalıdır. Belə məsələlərdən biri "Müstəqillik Günü haqqında" qanun layihəsinin irəli sürülməsi, buna əsasən mayın 28-nin Müstəqillik Günü, oktyabrın 18-nin isə Müstəqilliyin Bərpası Günü elan edilməsidir. Bu, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu göstərir. Bu, uzunmüddətli perspektivdə azərbaycanlıların tarixi torpaqlarına, o cümlədən Zəngəzura qayıdışı üçün əsasları daha da gücləndirəcək. Yeni atılan addımlar perspektivə hesablanıb, gələcək hədəfləri və milli məqsədləri özündə ehtiva edir.

*Göründüyü kimi, müstəqil Azərbaycan Böyük Yolun - Heydər Əliyev yolunun Müzəffər davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə strateji hədəflərinə doğru addım-addım irəliləyir. Əminliklə söyləmək olar ki, müstəqilliyinin 30-cu ildönümünü qeyd edən qalib Azərbaycan Respublikası regionun yeni geostrateji dizaynı fonunda öz mövqeyini daha da möhkəmləndirəcək, siyasi və iqtisadi imkanlarını genişləndirərək mühüm üstünlüklər qazanacaq. Bu isə müstəqillik prinsipinə əsaslanan və milli maraqların qorunması məqsədinə xidmət edən siyasətin ardıcıl və sistemli şəkildə davam etdirilməsi nəticəsində yeni zirvələrin fəth olunması, Azərbaycanın qarşısında yeni perspektivlərin açılması deməkdir!*

**Tahir BUDAQOV,**
***YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri***



**Dövlət müstəqilliyimiz 30**
*daimidir, əbədidir, dönməzdir!*

# Müstəqillik illərində ailə dəyərləri daha da möhkəmlənib

*Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 ili tamam oldu. Ötən 30 il müddətində insan hüquq və azadlıqlarının müdafiəsi, xüsusilə də ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində çox mühüm işlər görülüb.*

1995-ci ildə respublikamız BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi" barədə Konvensiyasına qoşulub. Bu demokratik qərar ölkədə qadınların ictimai-siyasi, sosial-mədəni aktivliyinin, fəallığının artması üçün impuls rolunu oynayıb. Eyni zamanda qadınların hüquq bərabərliyi, cəmiyyətdəki aparıcı rolu 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında da öz əksini tapıb, daha sonra mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi üçün bir sıra qanunlar qəbul olunub. Azərbaycan Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Ölkə rəhbərinin "Azərbaycanda qadınların rolunun artırılması", "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" sərəncamları qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı. Qadınların ictimai-siyasi fəaliyyətinin artırılmasında bu sənədlərin əhəmiyyəti çox böyükdür.

Zaman keçdikcə ölkədə ailə, qadın və uşaq məsələləri kompleks yanaşma tələb edirdi. Və bu zərurət yeni komitənin yaranmasına səbəb oldu. Prezident İlham Əliyevin 6 fevral 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Dövlət qurumlarında və digər təsisatlarda gender məsələləri üzrə məsul şəxslər fəaliyyət göstərirlər. Bütün yerli icra hakimiyyətlərində müvafiq yerli icra orqanlarının nümayəndələrindən ibarət gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılıb. Bu sahədə əsas nailiyyətlərdən biri də Milli Məclisdə ailə, qadın və uşaq məsələləri üzrə komitənin yaradılmasıdır.

Ailə, Cinayət, Mülki, İnzibati Xətalar məcəllələrinə, "İcra haqqında" qanuna edilən dəyişikliklər, "Gender bərabərliyinin təminatları", "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verməyə başladı. Eyni zamanda bir çox stereotipin qırılmasına səbəb oldu. Ulu Öndər Heydər Əliyevin dediyi kimi: "Tarixinin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir". Bu gün müasir qadın hərəkatının yeni prioriteti onların kişilərlə bərabər imkanlara nail olmasıdır. Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sözləri ilə desək: " Biz bu gün bərabər hüquqlardan bərabər imkanlara siyasətini gerçəkləşdiririk".

Bu gün əhalinin 50,1 faizini təşkil edən Azərbaycan qadınları parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə, ölkə iqtisadiyyatının inkişafında sahibkar kimi biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər rəhbər vəzifələrdə təmsil olunurlar.

Hər bir cəmiyyətin əsasını, nüvəsini ailə təşkil edir. Müstəqil dövlətimizin ali sənədinin - Konstitusiyanın müəllifi olan Ulu Öndər Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən edib. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunub. Ailə üzvlərinin, xüsusilə ana və uşaqların sağlamlığının mühafizəsi çox önəmli məsələlərdir. Bu, bir həqiqətdir ki, sağlam ailə sağlam nəsil, sağlam millət deməkdir. Bu baxımdan Ulu Öndərin imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" qanunu xüsusilə qeyd etmək lazımdır. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında və xüsusi tapşırığı ilə əhalinin icbari tibbi müayinədən keçirilməsi prosesi uğurla aparılır. "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair", "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına", "Talassemiya ilə mübarizəyə dair" dövlət proqramları təsdiq edilmiş, eyni zamanda tərəflərin nikahdan əvvəl tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə dəyişiklik edilib.

Hər bir dövlətin sağlam gələcəyinin təminatı həmin ölkənin uşaqlarının necə müdafiə olunmasından asılıdır. Hazırda respublikada 2 milyon 634 mindən çox uşaq var ki, bu da ölkə əhalisinin dörddə birindən bir qədər artıqdır. Uşaq hüquqlarının təmin edilməsi, onların problemlərinin həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti artıq milli strategiya kimi formalaşmaqdadır. Prezident İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artmasına səbəb olub. 2009-cu ilin Prezident İlham Əliyev tərəfindən "Uşaq ili" elan edilməsi uşaq siyasəti istiqamətində əlavə tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmış, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətini daha da artırmışdır. Uşaqların hərtərəfli inkişafında, intellektual və hüquqi biliklərə yiyələnməsində Ümumrespublika Uşaq Forumlarının xüsusi rolu var. Uşaqların öz hüquq və mənafeləri ilə bağlı qərarların qəbul olunmasında iştirakının təmin edilməsi ilə bağlı keçirilən (2009-cu, 2011-ci, 2014-cü və 2017-ci illər) bu forumlar komitənin, Heydər Əliyev Fondu və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi ilə reallaşmışdır.

Uşaq hüquqları sahəsində qanunvericilik bazası ildən-ilə daha da gücləndirilir. Belə ki, "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair", "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə" proqramlar qəbul edilmişdir. "Diri doğulmanın beynəlxalq meyarları"nın tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı qüvvəyə minmişdir. Uşaqların sağlamlıq hüququnun təmin edilməsi sahəsində "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrası ilə bağlı müvafiq tədbirlər görülüb. Sağlam ailə mühiti uşaqların inkişafına təsir göstərir. Məsələ yalnız ali təhsildə, yaxşı işlə təmin olunmaq, övladına ailə qurmaqda kömək etməkdən ibarət deyil. Əgər valideyn övladları ilə mütəmadi ünsiyyət qurmursa, onların həyatına, xüsusən də keçid yaş dövründə etinasız yanaşırsa, əlbəttə, həmin uşaqlar bir sıra sosial-psixoloji problemlərlə üzləşəcəklər. Bir çox halda məişət zəminində baş verən zorakılıq zamanı uşaqlar həm zorakılığın şahidi, həm də zorakılığın qurbanı olurlar. Həmin uşaqlar çox ciddi psixoloji zədələr alırlar ki, bunun da sonradan ağır fəsadları yaranır. Onların sosial-psixoloji reabilitasiya keçməsinə böyük ehtiyac yaranır. Bütün bu və digər məsələlər nəzərə alınaraq Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrinə dəyişikliklərin edilməsi haqqında qanun layihələri hazırlanıb. 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanunlar qəbul edilib. 2020-ci ildə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun qüvvəyə minib. Həmin ildə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" təsdiq edilib.

Bütövlükdə qeyd etmək lazımdır ki, respublikamız 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi və siyasi varisi olaraq müstəqilliyinin bərpasından keçən 30 ildə bir çox məsələni həll etməklə gələcək nəsillər üçün də yeni inkişaf yolu açdı. Bu inkişaf yolunun memarı Ulu Öndər Heydər Əliyev, rəhbəri, sərkərdəsi isə Prezident, Ali Baş Komandan İlham Əliyevdir.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

## Azərbaycanın müdafiə naziri NATO-nun Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi ilə görüşüb



Oktyabrın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO baş katibinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə köməkçisinin müavini, Qafqaz və Mərkəzi Asiya üzrə nümayəndəsi Xavyer Kolominanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra azad edilən ərazilərdə ordumuz tərəfindən görülən işlər və Azərbaycanın dövlət sərhədində hazırkı vəziyyətlə bağlı qonaqlara ətraflı məlumat verib.

General-polkovnik Z.Həsənov NATO ilə əməkdaşlığın cari vəziyyətindən, əməkdaşlıq sahəsində əldə olunan müsbət nəticələrdən məmnunluğunu bildirib, qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

X.Kolomina bölgədə sülhün təmin olunması istiqamətində NATO-nun müvafiq dəstək göstərməyə hazır olduğunu qeyd edib.

Görüşdə həmçinin postmüharibə şəraiti və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## Türkiyə ilə Azərbaycan arasında əlaqələr əmək, məşğulluq və sosial müdafiə sahəsində də genişlənir



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat Bilginin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı da iştirak edib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan və Türkiyənin qardaşlığa, xalqların sarsılmaz birliyinə söykənən əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsində olduğunu bildirib. O, ikitərəfli əlaqələrin sabit və uzunmüddətli inkişafında Azərbaycan və Türkiyənin dövlət başçılarının birgə və ardıcıl səylərinin xüsusi rolunu vurğulayıb.

Nazir bildirib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm tarixi Zəfərlə başa çatdırdığı, torpaqlarımızı Ermənistanın işğalından azad etdiyi 44 günlük Vətən müharibəsi dövründə də Türkiyə Azərbaycana daim siyasi və mənəvi dəstək göstərib. Qardaşlıq nümunəsi olan bu dəstəyi xalqımız yüksək qiymətləndirir.

İki ölkə arasında əlaqələrin əmək, məşğulluq və sosial müdafiə sahəsində də getdikcə genişləndiyini deyən S.Babayev bu məqsədlə ötən dövrdə 5 əməkdaşlıq sənədi imzalandığını, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlığa dair daha 2 əməkdaşlıq sənədi layihəsinin müzakirədə olduğunu bildirib. O, Azərbaycan və Türkiyə arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın fəaliyyətini qeyd edib. Ekspertlər səviyyəsində təcrübə və bilik mübadilələrinin əhəmiyyətini, Türkiyənin təşkilatları və QHT-ləri ilə fəal əməkdaşlıq təcrübəsini vurğulayıb.

Nümayəndə heyətinə ölkəmizdə son illərdə aparılan sosial islahatlar barədə məlumat verilib. Sosial ödənişlərin ciddi şəkildə artırılması istiqamətində atılan addımlar diqqətə çatdırılıb. Postmüharibə dövründə həyata keçirilən, şəhid ailələri və qazilərlə bağlı artıq 31 mindən çox insanı əhatə edən sosial dəstək tədbirləri qeyd edilib. Şəhid ailələri və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, tibbi-sosial reabilitasiyası sahəsində aparılan işlərdən bəhs olunub.

Dövlət sosial xidmətlərinin innovativ yeniliklər, müasir texnologiyalar üzərində, proaktiv qaydada qurularaq təkmilləşdirilməsi sahəsində əldə olunan nailiyyətlər qeyd edilib. Nazirlik üzrə 105 xidmətin tam elektronlaşdırıldığı bildirilib. DOST konsepsiyası, sosial sahədə 155 xidmətin vahid pəncərədən təqdim edildiyi DOST mərkəzləri barədə məlumat verilib.

Aparılan sosial islahatlar prosesində qardaş Türkiyənin aidiyyəti qurumları ilə fəal əməkdaşlığın qarşıdakı dövrdə də uğurla davam etdiriləcəyi vurğulanıb.

V.Bilgin Türkiyə üçün dost və qardaş ölkə olan Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu qeyd edib. Azərbaycanın ötən il Vətən müharibəsində əldə etdiyi böyük Zəfərin, öz torpaqlarını Ermənistanın işğalından azad etməsinin Türkiyə xalqında da sonsuz sevinc və iftixar yaratdığını bildirib. Türkiyədə aparılan sosial islahatları, əldə olunan sosial uğurları diqqətə çatdıran V.Bilgin rəhbərlik etdiyi qurumun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlığı daim genişləndirmək əzmində olduğunu bildirib.

Qeyd edək ki, görüş çərçivəsində əmək, məşğulluq, sosial müdafiə, həmçinin şəhid ailələri və qazilərin sosial müdafiəsi, dəstəklə əhatə olunması, DOST konsepsiyası, əlilliyin qiymətləndirilməsi və tibbi-sosial reabilitasiya, sosial sahədə innovativ yeniliklərin tətbiqi sahələrində gələcək əməkdaşlığa dair müzakirələr aparılıb. Əməkdaşlığın müqavilə-hüquq bazasının genişləndirilməsi, əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın növbəti iclasının təşkili və s. məsələlər müzakirə olunub.

## Azərbaycan Milli Məclisinin və Ombudsman Aparatının nümayəndə heyətləri Ankarada səfərdədir



Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun və Azərbaycan insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın rəhbərlik etdikləri nümayəndə heyətlərinin Türkiyənin paytaxtı Ankara şəhərinə səfəri başlayıb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətləri əvvəlcə Ankarada Heydər Əliyev Parkını ziyarət ediblər. Ümummilli Liderin parkda yerləşən abidəsinin önünə əklil qoyulub, xatirəsi ehtiramla anılıb.

Qeyd edək ki, deputatlardan Sevinc Fətəliyeva, Tural Gəncəliyev və Sahib Alıyevin də daxil olduqları parlament nümayəndə heyəti Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşündə iştirak edəcək.

Komitələrin birgə toplantısında regional və parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, qanunvericilik sahəsində informasiya və təcrübə mübadiləsi, ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, mədəni əlaqələrin inkişafı və digər məsələlər müzakirə olunacaq. Sonda mətbuat konfransı keçiriləcək.

Səfər çərçivəsində ombudsman Səbinə Əliyevanın türkiyəli həmkarı ilə görüşü, həmçinin 44 günlük Vətən müharibəsində işğalçı Ermənistanın Azərbaycana qarşı törətdiyi bəşəri cinayətlər, çoxsaylı terror aktları, o cümlədən yaşayış məntəqələrinin bombalanması, qadağan olunmuş silah və raketlərdən istifadə ilə törədilən dağıntı və fəlakətlər barədə hesabatın təqdim edilməsi nəzərdə tutulur.

Nümayəndə heyətləri oktyabrın 18-də Müstəqilliyin Bərpası Günü, həmçinin Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi münasibətilə təşkil olunan tədbirdə iştirak edəcəklər.

## İstanbulda keçirilən konfransda Azərbaycanın Müstəqilliyinin Bərpası Gününün tarixindən danışılıb



Oktyabrın 18-də İstanbulda Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümü münasibətilə "Azərbaycanın bu gün və yaxın keçmişdə qazandığı dəyərlər" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkiyənin tarixi Yıldız Teknik Universitetində keçirilən konfrans ölkəmizin İstanbuldakı baş konsulluğu tərəfindən təşkil edilib.

Tədbirdə müstəqilliyin bərpası uğrunda canından keçənlərin, həmçinin 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb.

İştirakçıları salamlayan baş konsul Nərminə Mustafayeva Vətənini, xalqını sevən hər bir kəs üçün onun azadlığından daha vacib amilin olmadığını vurğulayıb, Azərbaycanın müstəqillik tarixinin XX əsrin əvvəllərinə aid olduğu, ölkəmizin Qafqazın ilk müstəqil respublikası kimi tarixə düşdüyünü xatırladıb.

Qeyd edilib ki, qazanılan ilk müstəqilliyin qısa sürməsinə baxmayaraq, bu dövr ərzində bir çox qurumlar yaradılıb. Azərbaycan müstəqilliyini 30 il əvvəl bərpa edib. Burada Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri, atdığı təməllər üzərində qurulan yeni azad Azərbaycan illər keçdikcə daha da güclənərək dünyanın qabaqcıl ölkələri sırasına çıxıb. Hazırda Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycan 30 ilə yaxın davam edən işğala Ali Baş Komandanın rəhbərliyi ilə son qoyub və 44 günlük Vətən müharibəsi nəticəsində ərazi bütövlüyünü bərpa edib.

Tədbir panel iclasla davam edib. Siyasi analitik, Türkiyənin "A news" Media Şirkətinin redaktoru Səidə Zahidovanın moderatorluğu ilə baş tutan paneldə Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü professor Musa Qasımlı, "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) baş direktoru Zaur Qəhrəmanov, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza, Türkiyənin Prezident Administrasiyasının Təhlükəsizlik və xarici siyasət komitəsinin üzvü, Yeditəpə Universitetinin Strateji Araşdırmalar Mərkəzinin sədr müavini Mesut Hakkı Caşin, Boğaziçi Universitetinin rektorunun müavini Gürkan Kumbaraoğlu iştirakçılara Azərbaycanın müstəqillik yolu haqqında geniş məlumat veriblər.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb. Tədbirdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi akademik Asəf Hacıyev, "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suver, Türkiyənin müxtəlif universitetlərinin rektorları, diplomatik korpusun nümayəndələri, Türkiyədə fəaliyyət göstərən və yaşayan həmvətənlərimiz, eləcə də Türkiyə ictimaiyyətinin təmsilçiləri iştirak ediblər.

## Naxçıvanda "Mühasiblərin və Auditorların VII Avrasiya Forumu" keçirilib

Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının və Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Avropa və Asiya ölkələrinin nüfuzlu qurumlarının nümayəndələrinin təmsil olunduğu "Mühasiblərin və Auditorların VII Avrasiya Forumu" keçirilib.

AZƏRTAC xəbər verir ki, ümumilikdə 9 ölkənin peşəkar mütəxəssislərinin və yerli qurumların nümayəndələrinin iştirak etdiyi forumda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Rəfael Əliyev bildirib ki, audit, mühasibat uçotunun təşkili və aparılması sahəsində muxtar respublikada mühüm tədbirlər həyata keçirilir. Dövlət təşkilatları, hüquqi, fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili, aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində tədbirlər görülərək maliyyə, büdcə, vergi, mühasibat uçotu və audit fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər verilir.

Nazir qeyd edib ki, bu gün maliyyə və mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının artırılması sahəsinə diqqət yetirilir, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Mühasibat Uçotunun Beynəlxalq Standartları və uçot qaydalarının tətbiqi ilə bağlı təlim kursları, seminarlar, konfranslar təşkil edilir və digər zəruri tədbirlər həyata keçirilir.

Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının Məsləhət Şurasının üzvü, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə çıxışında bildirib ki, son 20 ilin statistikası Naxçıvanda iqtisadiyyatın bütün sahələrində dinamik inkişafın davam etdiyini təsdiqləyir. Təqdirəlayiq haldır ki, muxtar respublika bu üstünlüyü blokada şəraitində, ölkəmizin 20 faizi işğal altında olduğu bir dövrdə əldə edib.

"Mühasiblərin və Auditorların VII Avrasiya Forumu"nun təşkilinin ölkələrimiz arasında beynəlxalq əməkdaşlığın inkişafına, maliyyə, uçot və audit sisteminin təkmilləşdirilməsinə kömək edəcəyini vurğulayan Ziyad Səmədzadə deyib ki, əsas məqsəd qloballaşan dünya iqtisadiyyatında yaranmış vəziyyət, maliyyə resurslarından səmərəli istifadə olunması, idarəetmə sistemində və bütövlükdə sosial-iqtisadi həyatda şəffaflığın yüksəldilməsi sahəsində peşəkar müzakirələr aparmaq, mövcud problemləri təhlil etmək, beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq institusional mexanizmlərin fəaliyyət istiqamətlərini dəqiqləşdirmək, bu sahədə beynəlxalq standartların tətbiqi, maarifləndirmə və beynəlxalq əməkdaşlıq üzrə real nəticələr əldə etməkdən ibarətdir.

Forumda mühasib və auditorların fəaliyyət prinsiplərinə uyğun 4 panel üzrə mühasibat uçotunun təkmilləşdirilməsində dövlət tənzimlənməsinin rolu, maliyyə hesabatlarında şəffaflıq problemləri, müasir çağırışlar: vergi və maliyyə hesabatlılığı, vergi qanunvericiliyi və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Mühasibat uçotu sahəsində qanunvericilik, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi və digər mövzuları əhatə edən təqdimatlar olub.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# FATEH, yoxsa XİLASKAR?



...Nə vaxtdandır həmkarlarımızla bizi ciddi düşündürən, əslində, çox narahat edən bir məsələ ötən həftə yaradıcılıq ezamiyyətində olduğumuz Şuşada da müzakirə mövzumuza çevrildi.

Zəfərin zirvə məqamı, rəmzi olan bu müqəddəs məkanda həmsöhbət olduğumuz yüksəkrütbəli zabit də elə bizim narahatlığımızı bölüşürdü. Onun (adının çəkilməsini istəmir) bu məsələni hökmən ictimailəşdirmək barədə ricasından sonra mövzuya aydınlıq gətirməyi zəruri saydıq.

Söhbət son bir ildə leksikonumuzun ən işlək ifadələrindən birinə çevrilən, indi isə az qala hər cümləmizin mübtədası olan "fateh" sözündən gedir...

Tariximizin ən möhtəşəm zəfərinin müəllifi olan Müzəffər Ali Baş Komandana və Silahlı Qüvvələrimizin igidlərinə çoxları "fateh" deyir...

"Qarabağ fatehləri"...

"Şuşa fatehləri"...

Bu ifadə qəzetlərdə, saytlarda bəzən manşetlərdə belə yazılır, telekanallarda tez-tez deyilir...

Doğrudur, təntənəli səslənir, duyğularımızı tam mübaliğəsi ilə əks etdirir. Fəqət deyilişi gözəldir, mənası isə...

Yanlışdır!

Təhrifedicidir!

Qüsurludur!

"Fateh" sözünün konkret mənası var. İzahlı lüğətdə aydın ifadə olunur: "Fateh - bir ərazini, ölkəni tutan, işğal edən şəxs".

Yəni istilaçı...

Aramızda rusdillilərin də, daha dəqiqi, rusca danışmağı xoşlayanların da çoxluğunu nəzərə alıb, bu dildə tərcüməsini də yazaq: "завоеватель".

"Fateh" sözü "освободитель" demək deyil!

Fateh Konstantinopolu İstanbula çevirən Sultan Məhmətdir...

Əfqanıstana, Hindisdana-Dehliyə şanlı bayrağımızı sancan Nadir Şahdır...

Misalları Makedoniyalı İsgəndərdən başlayaraq yaxın keçmişin fatehlərinə qədər istənilən qədər uzatmaq olar.

Azərbaycan Ordusu isə Qarabağı, Şuşanı fəth etməyib, işğaldan azad edib!

Öz yurdumuzun bir parçasını, qədim torpağımızı özümüz necə fəth edə bilərik?!.

Bəyəm Qarabağ başqa ölkəyə məxsusdur?!.

İlham Əliyev və Azərbaycan Ordusu Qarabağın, Şuşanın fatehləri deyillər, əsla deyillər!

Xilaskarlarıdırlar!

Elə Şuşada həmsöhbət olduğumuz zabit də bundan gileyli idi: "Bizə "fateh" deyəndə, bu sözü eşidəndə hər dəfə əsəbiləşirəm. Adam da öz yurdunun fatehi olar?!"

Kimsə fikirləşə bilər ki, "fateh deməklə dünya dağılmır ki?! Sözdür də, deyilir".

Səhv yanaşmadır: "fateh" sözü, "azad edən" ifadəsinin sinonimi deyil, tam əksidir!

Düşmənin də dediyi və əsrlərdir yaydığı yalanı unutmayaq. Qarabağı "qədim erməni yurdu" kimi təqdim edən düşmən elə indi məhz bu cəfəngiyyata söykənir: "Azərbaycan Qarabağı fəth edib". Yəni işğal edib, istila edib...

Bu anlaşılmazlığa, əslində, Prezident İlham Əliyev ötən il oktyabrın 5-də - savaşın gərgin anlarında nöqtə qoyub. Həmin günlərdə Fransa Prezidenti E.Makron Azərbaycan Ordusunu "Qarabağı fəth etməkdə" "ittiham" edirdi. Dövlət başçımız da TRT-yə müsahibəsində E.Makrona xitabən söyləmişdi: *"O, açıqlamasında demişdir ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerləyeksan ediblər. Ona görə "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik" sözləri qəbuledilməzdir. Biz buna səssiz qala bilmərik".*

İndi əlavə şərhə lüzum varmı?..

Zəfərimizə kölgə salmayaq, sözlərimizdə və fikirlərimizdə dəqiq olaq. Düşmən dəyirmanına su tökməyək.

Və ən nəhayət, beyinlərə, yaddaşa, leksikonumuza bu yanlış, təhrifedici, qüsurlu məna verən ifadəni zorla yerləşdirməyək!

*Fateh - yoxdur!*

*Xilaskar - var!*

*Xilaskarlarımıza isə əbədi borcluyuq...*

*Qarabağ fəth olunan yurd deyil, Qarabağ Azərbaycandır!*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# Ağdam sakinlərinin doğma şəhərlərinə növbəti səfəri təşkil olunub



Ağdam sakinlərinin işğaldan azad olunmuş Ağdam şəhərinə "Yolumuz Ağdama" adlı növbəti səfəri təşkil edilib. Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən təşkil olunan səfər zamanı ağdamlılar doğma şəhərlərinə uzun illərdən sonra yenidən ayaq basıblar.

AZƏRTAC xəbər verir ki, Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları ağdamlıları doğma şəhərlərində salamlayıblar. Səfər iştirakçılarına Ağdam şəhərinin hazırkı vəziyyəti və burada həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib.

Ağdam sakinləri Cümə məscidini, İmarət kompleksini, Çörək muzeyinin və Dram Teatrının qalıqlarını ziyarət ediblər. Ağdamlılar səfər çərçivəsində Qiyaslı kənd məscidində və Şahbulaq qalasında da olublar.

AZƏRTAC-ın bölgə müxbiri səfər iştirakçılarının bir neçəsi ilə həmsöhbət olub, təəssüratlarını öyrənib.

**Gülnarə Tağıyeva:** "Uzun illər idi ki, doğma torpaqlarımıza qayıtmağımızı həsrətlə gözləyirdik. Bu gün həsrət sona çatıb. Doğulub boya-başa çatdığım şəhərimə gəlmişəm. Buna görə özümü xoşbəxt sayıram. Sevinirəm ki, Ağdam erməni işğalından azad edilib. Eyni zamanda burada qarşılaşdığım mənzərə çox dəhşətlidir. Gözəl şəhərimdən əsər-əlamət qalmayıb. Yenə də Allaha çox şükürlər olsun, Vətənimizə gəldik, torpağına ayaq basdıq, havasını udduq. Bu, bizim üçün hər şeydir. Bu sevinci bizə bəxş edən Prezidentimizə, ordumuza minnətdarlığımı bildirirəm".

**Könül Tağıyeva:** "Bu gün Ağdama gəlməklə burada keçən qayğısız, xoşbəxt günlərimə qayıtdım. Ömrümün ən gözəl günlərini Ağdamda yaşamışam. Çox sevinirəm ki, doğma şəhərim artıq azaddır və biz buraya qayıtmışıq. Biz Ağdamı öz xatirələrimizlə, söhbətlərimizlə uşaqlarımızı sevdirmişik. Sevinirəm ki, Ağdamı görməyən uşaqlarımız gəlib burada yaşayacaqlar".

**Afət Zeynalova:** "İllərdir həsrətini çəkdiyim şəhərimdəyəm. Buraya qədəm qoyandan ağlayıram. Bizim üçün müqəddəs olan torpağından da götürdüm. Aparıb doğmalarımızın qəbri üstünə səpəcəyəm. 28 ildir bu günü gözləmişəm. Gözəl şəhərimiz vardı. Gördüklərimdən çox təsirlənmişəm. Erməni vandalları yerləyeksan ediblər. Allah Prezidentimizi qorusun! İnanıram ki, Ağdamımız tezliklə yenidən qurulacaq və ağdamlıların burada xoşbəxt günləri yenidən başlayacaq".

# Zaqatalada şəhid Sayad Hacıyevin xatirəsi yad edilib




Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarından biri də Zaqatala rayonunun Bazar kəndindən olan Sayad Hacıyevdir. Oktyabrın 17-si şəhidin şəhadətə yüksəlməsinin bir ili tamam olur.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Sayad Hacıyevin şəhidlik zirvəsinə yüksəlməyinin bir illiyi ilə əlaqədar rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyətin nümayəndələri onun məzarını ziyarət edərək üzərinə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad edib, ruhuna dualar oxuyublar.

Anım mərasimində 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazandığı tarixi Qələbədən söz açılıb, zəfərlə başa çatan müharibədə Vətənimizin igid oğullarının göstərdikləri qəhrəmanlıqlardan danışılıb.

Şəhidin valideynlərinə Vətən müharibəsində göstərdiyi igidliyə görə təltif olunduğu medal təqdim edilib.

Sayad Hacıyev 2001-ci il martın 14-də Zaqatala rayonunun Bazar kəndində anadan olub. O, 2019-cu ilin iyulunda həqiqi hərbi xidmətə çağırılıb. Vətən müharibəsi başlanana qədər Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edib. Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılan Sayad Hacıyev Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olub. Döyüşlərdə göstərdiyi igidliyə görə, o, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

# 19 oktyabr ZƏFƏR gündəliyi 2020-ci il



Bütün cəbhəboyu döyüşlər davam edir.

Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları aparılır. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulur.

Azərbaycan Ordusunun fəaliyyətləri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖



Bir çox istiqamətdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıblar. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.

❖ ❖ ❖




Prezident İlham Əliyev xalqa müjdəli xəbər verir. Ali Baş Komandan rəsmi "Tviter" səhifəsində yazır:

"Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik edib və təbriklərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırır. General-polkovnik E.Quliyev DSX-nin şəxsi heyətinin Ali Baş Komandanın bütün tapşırıqlarını bundan sonra da layiqincə yerinə yetirəcəyini məruzə edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycanla dövlət sərhədində növbəti dəfə vəziyyəti gərginləşdirməyə cəhd göstərir. Saat 11:10-dan başlayaraq Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqeləri iriçaplı silahlardan atəşə tutulur.

❖ ❖ ❖

Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edir. Müraciətdə qeyd edilir ki, son günlər bəzi sosial şəbəkə istifadəçiləri əməliyyatların aparıldığı istiqamət və cari vəziyyətlə bağlı müxtəlif şəxsi fikirlər paylaşaraq hadisələri qabaqlamağa çalışırlar.

Nazirlik bildirir ki, bu cür addımlar həm məxfilik rejiminin pozulmasına, həm də hərbi qulluqçularımızın həyatının təhlükəyə atılmasına səbəb ola bilər:

"Bütün bunları nəzərə alaraq sosial şəbəkə istifadəçiləri və KİV nümayəndələrini rəsmi surətdə öz təsdiqini tapmamış məlumatları yaymamağa və yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq".

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri saat 12:00-dan başlayaraq işğal olunmuş Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini 82 və 120 millimetrlik minaatanlar və iriçaplı atıcı silahlardan atəşə tutur.

❖ ❖ ❖




"Ermənistan silahlı qüvvələri razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini kobudcasına pozaraq oktyabrın 18-də saat 00:02-dən sonra Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutub".

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi "Tviter" hesabında bildirir.

Dövlət başçısı qeyd edir ki, bu çirkin əməllər nəticəsində ölən və yaralananlar var: "Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək bir neçə yaşayış məntəqəsini işğaldan azad edib".

❖ ❖ ❖



Prezident İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinə videomüsahibə verərək Ermənistanın elan olunan atəşkəsi növbəti dəfə pozmasını faktlara əsasən izah edir.

İlham Əliyev deyir ki, Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanıb, həmin öhdəlikləri yerinə yetirməyə çalışıb. Lakin təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub: "Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

Prezident bir daha Ermənistan rəhbərliyinə sərt xəbərdarlıq edir: "Əgər ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq. Buna görə də sualınıza qayıdıram, biz baza prinsiplərinə tərəfdarıq, hesab edirəm ki, nizamlama mümkündür. Lakin bunun üçün erməni tərəfi elə indi, nə qədər ki, gec deyil, nə qədər ki, qarşımızda diz çöküb bu prinsipləri qəbul etmək və münaqişəni qaynar fazadan siyasi nizamlama mərhələsinə keçirmək üçün onun hələ vaxtı var".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Gəncədə Vətən müharibəsi zamanı həlak olmuş mülki şəxslərin xatirəsi anılıb

Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən növbəti dəfə raket atəşinə tutulmasından bir il ötür. Bununla əlaqədar Gəncədə anım mərasimi keçirilib.





Anım mərasimində Milli Məclisin I vitse-spikeri Əli Hüseynli, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, millət vəkilləri, Türkiyə və Gürcüstanın Gəncədəki baş konsulları, hüquq-mühafizə orqanlarının rəhbərləri, müsəlman, xristian və yəhudi dini icmalarının, habelə şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə Vətən müharibəsi dövründə Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkmiş, terror qurbanlarının xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məlumat verərək demişdir ki, 2020-ci ilin oktyabrın 17-də gecə saat 2 radələrində düşmənin növbəti dəfə Gəncəni "SCUD/Elbrus" əməliyyat-taktiki ballistik raketləri ilə atəşə tutması nəticəsində 15 nəfər şəhid olmuş, 50-dən artıq şəxs yaralanmış, mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Şəhid olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da olmuşdur. O da diqqətə çatdırılmışdır ki, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri ümumilikdə 5 dəfə (4, 5, 8, 11 və 17 oktyabr tarixlərində) raket atəşinə məruz qalmışdır. Nəticədə 26 nəfər şəhid olmuş, 130-dan artıq şəxs yaralanmışdır.

Milli Məclisin I vitse-spikeri Əli Hüseynli qeyd etmişdir ki, Vətən müharibəsinin başladığı ilk günlərdən Ermənistan qadağan olunmuş silahlardan istifadə edərək döyüş bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrini, mülki obyektləri, xüsusilə də Gəncəni raket atəşinə tutmuşdur. "Bütün bu qanlı hadisələrə, terror aktlarına baxmayaraq, Azərbaycan xalqının iradəsi sınmadı. Azərbaycan Ordusu isə həm gəncəlilərin, həm də həlak olmuş digər mülki şəxslərin qisasını Ermənistan ordusuna sarsıdıcı zərbələr vurmaqla aldı".

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin Gəncədə törətdikləri terror nəticəsində dağılan ərazilər gün ərzində şəhər ictimaiyyətinin nümayəndələri və sakinlər tərəfindən ziyarət olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ukraynalı deputatlar Ermənistanın Gəncəni raket atəşinə tutması nəticəsində dinc insanların həlak olduğu əraziyə baş çəkiblər

Ölkəmizdə səfərdə olan Ukrayna Ali Radasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri oktyabrın 17-də Gəncə şəhərinə səfər ediblər.



AZƏRTAC xəbər verir ki, Ukrayna Ali Radasının üzvləri Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində dağılan əraziyə baş çəkiblər.

Qonaqlara Vətən müharibəsi zamanı ermənilər tərəfindən Gəncə şəhərində törədilən terror hadisələri ilə bağlı ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistan silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutublar. Azərbaycanın ikinci böyük şəhəri Gəncə 4, 5, 8, 11 və 17 oktyabr tarixlərdə raket və ağır artilleriya hücumlarına məruz qalıb. Aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 175 nəfər yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

# *Ukraynalı deputatlar:* "Qarabağda gördüklərimizi unutmayacağıq"

İldırımsürətli müharibənin nəticələri onu deməyə əsas verir ki, Azərbaycan bu müharibəyə ancaq modern Silahlı Qüvvələrini yaratmaqla deyil, mükəmməl informasiya təhlükəsizliyi konsepsiyası ilə hazırlaşıb.

Biz işğaldan azad edilmiş Ağdam rayonunda qorxunc, heç vaxt unuda bilməyəcəyimiz mənzərə ilə yanaşı, Azərbaycan dövlətinin qurmaq, yaratmaq iradəsini gördük.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan parlamenti və Diasporla İş üzrə Dövlət Komitəsinin dəvəti ilə ölkəmizdə səfərdə olan Ukrayna Ali Radasının Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Valeriy Kolyux deyib.

Müstəqilliyin Bərpası Günündə Azərbaycanda olmaqdan və bu günü Azərbaycan xalqı ilə birlikdə qarşılamaqdan məmnunluğunu bildirən Kolyux uzun illər işğal altında qalmış ərazilərin azad edilməsini möhtəşəm hadisə adlandırıb. Ağdamda gördükləri ilə bağlı təəssüratlarını bölüşən ukraynalı deputat deyib: "Qarabağa səfərimiz çərçivəsində Ağdam şəhərində xarabalıqların şahidi olduq. Gördük ki, işğalçı qüvvələr orada hər şeyi dağıdıb-söküb, əraziləri minalayıb. Bununla belə, Azərbaycan tərəfindən görülən bərpa-quruculuq işləri bu torpaqların xoş gələcəyinə ümidimizi artırdı".

Ukrayna parlamentindəki "Xalqın xidmətçisi" fraksiyasının təmsilçisi Lyudmila Març enko Ağdamda gördüklərinin təsirindən tezliklə çıxa bilməyəcəyini söyləyib. O deyib: "Çünki orada gördüklərimiz Ukrayna üçün nəticə çıxarmalı nümunələr idi. Bu, qorxunc müharibə ilə bərabər, güclü, qurucu Azərbaycan dövlətinin iradəsini göstərirdi. Biz Azərbaycanın nələrin hesabına ərazi bütövlüyünü bərpa etdiyinin şahidi olduq".

Ukrayna Parlamentinin Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Vladimir Kreydenko vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdəki dağıntıların miqyasına baxmayaraq, orada aparılan tikinti və quruculuq işlərinin miqyası məhv edilmiş yerlərin qısa müddətdə müasir yaşayış məntəqəsinə çevriləcəyini deməyə əsas verir.

# Xüsusi Təyinatlı Qüvvələrdə taktiki-xüsusi təlim keçirilir




Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün döyüş hazırlığı planına əsasən, xüsusi təyinatlı hərbi hissə və bölmələrin oktyabrın 14-ü gecədən başlayan taktiki-xüsusi təlimi davam edir.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib.







# Yeni tariflər "Azəriqaz" və "Azərişıq"ın rentabelliyini artıracaq, büdcədən asılılığını azaldacaq

## Prezidentin sərəncamı kommunal xərclərdəki qiymət dəyişikliyini qarşılamağa xidmət edir

Məlum olduğu kimi, bu il oktyabrın 16-da Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. İclasda təbii qazın və elektrik enerjisinin tariflərinə baxılıb, müvafiq qərarlar qəbul edilib.

Tarif (qiymət) Şurası sözügedən iclasda dünya bazarında təbii qazın bahalaşması, ölkəmizin enerji dayanıqlığı məqsədilə bu sahəyə investisiya qoyuluşunun təmin edilməsi, xidmət səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsindən asılılığın aradan qaldırılması, eləcə də istehlak olunan təbii qazın istehsal və təchizat xərclərinin ödənilməsi kimi məsələləri müzakirə edib. Bir sıra amillər nəzərə alınmaqla müxtəlif tarif artımı variantları dəyərləndirilib. Təbii qazın hasilat və istehlakçıya çatdırılma xərcinin satış qiymətlərini üstələdiyi bildirilib. Bunun sahənin dövlət tərəfindən subsidiyalaşdırılmasına və dövlət büdcəsindən asılılığın artmasına səbəb olduğu qeyd edilib. Tarif artımı variantları nəzərdən keçirilərkən aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsinin onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılmasının önəmi vurğulanıb. Xatırladılıb ki, əhali istehlak qrupu üzrə sonuncu tarif dəyişikliyi 2021-ci ilin iyul ayında aparılıb və tarif tənzimlənməsi zamanı istehlak limitinin aşağı həddi üzrə (1200 kubmetr) tariflərə dəyişiklik olunmayıb.

Beləliklə, indiyə qədər abonentlər əhali üzrə istehlak etdiyi təbii qazın hər 1200 kubmetrinə görə 10 qəpik ödəyirdisə, noyabrın 1-dən etibarən 12 qəpik ödəyəcək. Sənaye subyektləri üzrə sahibkarlar indiyə qədər ilkin limit üzrə 20 qəpik ödəyirdisə, gələn aydan bu məbləğ 22 qəpik olacaq.

"Azəriqaz" İB-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyev bildirib ki, iki qəpik artım çox böyük hesab olunmasa da, "Azəriqaz"ın daha rentabelli işləməsinə xidmət edəcək. Əsas problemlərdən biri dövlət qurumları və müəssisələrinin rentabelli işləməsi və büdcədən asılılığı minimuma endirməsidir. E.Vəliyev deyib: "Hesab edirəm ki, qiymətin artırılması işin keyfiyyətinə, rentabelliyin daha yüksək səviyyədə olmasına xidmət edəcək. Digər limitlər üzrə, yəni 1200 kubmetrdən 2500 kubmetrə qədər və 2500 kubmetrdən çox olan limitlər üzrə heç bir qiymət artımı olmayacaq. Yəni qiymətlər əvvəlki kimi 20-25 qəpik həcmində saxlanılıb".

Təbii qaz qiymətlərinin sürətli artımı dünyada, o cümlədən Avropada elektrik enerjisi qiymətlərinin kəskin qalxmasına təkan verib. Cari ilin əvvəlindən etibarən sənaye və iaşə müəssisələrinin fəaliyyətini bərpa etməsi, qlobal iqtisadi aktivliyin gözləniləndən daha sürətli canlanması elektrik enerjisinə tələbatı da kəskin artırıb. Qiymətlərin artıma doğru istiqamətlənməsi nəticəsində bir çox ölkələrdə təbii qazdan və elektrik enerjisindən istifadə edən sahələr üçün tariflər dəyişib, istehlakçı kateqoriyaları üçün kommunal xərclər artıb.

Qeyd edək ki, Prezident İlham Əliyev bu il oktyabrın 16-da beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarını yumşaltmaq və əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə növbəti sərəncam imzalayıb. "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamda Nazirlər Kabinetinə tapşırılıb ki, əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılmasının təmin edilməsi ilə bağlı gələn ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanıb Prezidentə təqdim olunsun.

Sözsüz ki, görülən tədbirlər kommunal tariflərdəki dəyişikliyi qarşılayacaq və aztəminatlı əhali təbəqəsi bundan əziyyət çəkməyəcək.

Xatırladaq ki, ölkəmizdə əsas enerji istehsalçısı olan "Azərenerji" ASC elektrik enerjisinin 96 faizini təbii qaz hesabına istehsal edir. Azərbaycanın istilik elektrik stansiyalarında elektrik enerjisi istehsalı üçün istifadə olunan xammalın da 50 faizdən çox hissəsini təbii qaz təşkil edir. Bu baxımdan təbii qazın tarif dəyişikliyi elektrik enerjisinin qiymət artımını şərtləndirir.

Elektrik enerjisi üzrə mövcud tariflər 2016-cı il dekabrın 1-dən tətbiq olunur. İnfrastrukturun genişləndirilməsi, əhalinin və digər abonentlərin keyfiyyətli, fasiləsiz enerji ilə təmin edilməsi, habelə enerjinin istehsalı üçün istifadə olunan təbii qazın qiymətində dəyişikliklər nəticəsində yaranan əlavə xərcləri qarşılamaq üçün elektrik enerjisinin tarif tənzimlənməsi zərurəti yaranıb.

Ölkədə aparılan sosialyönümlü siyasət nəzərə alınmaqla və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi məqsədilə əhali üzrə diferensiallaşdırılmış tariflərin sayı 2-dən 3-ə artırılıb.

Tarif dəyişikliyi nəticəsində qaz və elektrik enerjisi istehsalı və təchizatı ilə məşğul olan təsərrüfat subyektlərinin dövlət büdcəsindən asılılığı tədricən azalacaq, büdcədə sərbəstləşən vəsait sosialyönümlü tədbirlərin həyata keçirilməsinə sərf ediləcək.

"Azərişıq" ASC-nin Enerji Satışı Departamentinin direktor müavini Vüqar Nəbibəyli vurğulayıb ki, tariflərin dəyişdirilməsi ilə qaz və elektrik enerjisi istehsalı və təchizatı ilə məşğul olan təsərrüfat subyektlərinin dövlət büdcəsindən asılılığının tədricən azalması nəzərdə tutulub. Bununla da büdcə vəsaiti sosialyönümlü tədbirlərə yönləndiriləcək. Digər tərəfdən, tarif tənzimlənməsi Azərbaycanda alternativ enerji istehsalına əlverişli şərait yaradacaq. Bu sektorun inkişafı təbii qaz sərfiyyatının, qaz əsaslı enerji istehlakının azalmasına səbəb olar, iqtisadiyyatda yeni xidmət sahələri inkişaf etdikcə daha da ucuzlaşa biləcək alternativ mənbələr yaranar.

"Azərişıq"ın nümayəndəsi bildirib: "Azərenerji" ASC-yə verilən təbii qazın tariflərinin artırılması ilə əlaqədar elektrik enerjisi üçün topdan və pərakəndə tariflərin tənzimlənməsi zərurəti yaranıb. Elektrik enerjisinin topdan satışının tarifinin artırılması nəticəsində "Azərişıq" üzrə yaranan əlavə xərclər bütün istehlakçılar üzrə paylanıb. Yəni əhali, sənaye, nəqliyyat, kənd təsərrüfatı, ticarət və xidmət üzrə bölüşdürülüb. Əvvəlki tarif əhali üçün güzəştli idi, yəni 300 kilovat-saata qədər 7 qəpik, 300 kilovat-saatdan yuxarı isə 11 qəpik təşkil edirdi. Diferensial tarif sosial cəhətdən aztəminatlı ailələr üçün güzəştli tarif siyasətini hazırda da qoruyub saxlamış olur. Belə ki, istehlak səbətində bir nəfərin aylıq istehlakı 50 kilovat-saatdırsa, orta statistik ailə tərkibinin sayının 4 nəfər olduğu nəzərə alınanda güzəştli tariflər aylıq istehlakın 200 kilovat-saatına tətbiq ediləcək. Yəni 200 kilovat-saata qədər yenə də güzəşt tətbiq olunur, 7 qəpikdən 8 qəpiyə qalxır, 200 kilovat-saatla 300 kilovat-saat arasında istifadə edən abonentlərin tarif qiyməti 9 qəpikdir, 300 kilovat-saatdan çox istifadə edən abonentlərin isə tarif qiyməti 1 kilovat-saat üçün 13 qəpik müəyyənləşib. Ayrıca qeyri-əhali abonentləri iki kateqoriyaya ayrılıb: ticarət, xidmət və digər. Ticarət və xidmət abonentlərinin tarifi 9 qəpikdən 11 qəpiyə, digər bütün qeyri-əhali abonentlərin tarifi isə bir qəpik artırılaraq 9 qəpikdən 10 qəpiyə qalxıb".

V.Nəbibəyli qeyd edib ki, təbii qazın qiymətinin artmağı elektrik enerjisi üçün topdansatış qiymətinin də artırılmasına zərurət yaratdı. "Azərenerji" ASC-dən alınan topdansatış elektrik enerjisinin qiyməti 5,7 qəpikdən 6,6 qəpiyə artırılaraq belə bir müəyyənləşmə aparıldı.

Beləliklə,"Azərişıq" bildirir ki, tarif tənzimlənməsi Azərbaycanda alternativ enerji istehsalına əlverişli şərait yaradacaq. "Azəriqaz" hesab edir ki, tariflərin dəyişdirilməsi rentabelliyin daha yüksək səviyyədə olmasına xidmət edəcək.

Xatırladaq ki, qərarlar 2021-ci il noyabrın 1-dən qüvvəyə minəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Dövlət başçısının yeni sərəncamı ilə sosial ödənişlərin artımı kimləri əhatə edəcək?

Prezident İlham Əliyevin 2021-ci il 16 oktyabr tarixli "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı sosial ödənişlərin artırılması istiqamətində növbəti mühüm addımın atılmasına imkan verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sərəncamın icrası olaraq əmək müqaviləsi ilə çalışanların böyük qisminin əməkhaqları artırılacaq. Həmçinin minimum əməkhaqqı alanların da məvacibləri yüksəldiləcək. Bu islahat 1 milyonadək işçini əhatə edəcək.

Pensiya və sosial müavinət artımı tədbiri isə 450 min şəxsə müvafiq sosial ödənişin artırılmasına imkan verəcək.

Təqaüd artımı istiqaməti isə tələbələrin rifahına dəstək məqsədi daşıyır. Təqribən 130 minədək tələbənin təqaüdündə artım olacaq.

Sərəncamın icrası ilə sosial ödəniş artımı, həmçinin aztəminatlı əhali kateqoriyasına aid ailələri də əhatə edəcək.

Ümumilikdə 1 milyon 800 min vətəndaşı əhatə edəcək sərəncam onların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Xatırladaq ki, sərəncamda Nazirlər Kabinetinə əməkhaqlarının, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılır. Həmin təkliflərin hazırlanmasına artıq başlanılıb və qısa müddət ərzində bu təkliflər yekunlaşdırılaraq təqdim ediləcək.



# IDEA İctimai Birliyi ilə Ümumrusiya Təbiəti Mühafizə Cəmiyyəti arasında saziş imzalanıb

Moskvada səfərdə olan Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Ümumrusiya Təbiəti Mühafizə Cəmiyyətinin sədri və BMT Ətraf Mühit Proqramının (UNEP) xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüş çərçivəsində IDEA İctimai Birliyi ilə Ümumrusiya Təbiəti Mühafizə Cəmiyyəti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında niyyət sazişi imzalanıb.

Saziş ekologiya və dayanıqlı inkişaf sahəsində təhsil və maarifləndirmə, gənclərlə iş və onların ekoloji problemlərin həllinə cəlb edilməsi və digər istiqamətlərdə birgə səy və layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Söhbət zamanı tərəflər təbiətin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə üzrə ölkələrimizdə və beynəlxalq səviyyədə birgə təşəbbüslərin uğurla həyata keçiriləcəyinə əminlik ifadə ediblər. Həmçinin yaxın vaxtlarda Qlazqo şəhərində keçiriləcək BMT-nin iqlim konfransı ilə bağlı ümid və gözləntilər, eləcə də qlobal istiləşmə ilə mübarizə sahəsində birgə fəaliyyət və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Qlobal istiləşmə dövründə gözlənilməz hadisə



## Cənub qütbündə ən soyuq mövsüm qeydə alınıb

Şimal yarımkürəsinin əksər hissəsində dağıdıcı daşqınlar, qasırğalar və yanğınlarla müşayiət olunan rekord dərəcədə isti yay fonunda Antarktidada güclü şaxtalar qeydə alınıb. Qitənin cənub nöqtəsində bu, adətən, qış aylarında baş verir. Lakin 2021-ci ildə hər şey əksinə olub. Aprel-sentyabr ayları dövründə Antarktidadakı Amundsen-Skott stansiyasında orta temperatur selsi üzrə mənfi 61 dərəcə olmuşdur. Bu, 1957-ci ildən bəri, bütün müşahidələr tarixi boyu ən soyuq temperaturdur.

Bu gözlənilməz hadisəni alimlər təsadüf kimi qiymətləndirirlər. Çünki Antarktida planetin qalan yerləri kimi ekstremal hava şəraiti fonunda sürətlə qızmaqda davam edir.

İlk olaraq temperatur rekordu barədə meteoroloq Stefano Di Battista məlumat verib. Sonradan bu informasiyanı NASA-nın Qlobal Modelləşdirilmə və Assimilyasiya İdarəsinin tədqiqatçı alimi Riçard Kalleter təsdiqləyib.

Bildirilir ki, avqust ayında Antarktida üzərindəki ekstremal soyuqlar qitə ətrafında dəniz buzunu bütün müşahidələr tarixi boyu qeyd olunan səviyyənin 5-ci dərəcəsinə qaldırıb.

Viskonsin Universitetinin alimi və Antarktida meteorologiyası üzrə ekspert Metyu Lazzara deyir ki, göstərilən dövrdə temperatur dəfələrlə mənfi 73 dərəcəyə yaxınlaşıb. Belə temperaturlarda təyyarəni idarə etmək çətindir. Belə ki, hidravlik sistem dona bilər və yanacaq jeleyə çevrilər.

Dünyada ekstremal hava şəraiti üzrə mütəxəssis, iqlimşünas Maksimiliano Errera bildirir ki, dünən Rusiyanın "Vostok" stansiyasında mənfi 79,4 dərəcə temperatur qeydə alınıb.

Alimlər hesab edirlər ki, bu şaxtaların arxasında güclü qütb çovğunu, yaxud Antarktida ətrafında stratosferdə güclü küləklər halqası dayanır.

NASA-nın elmi əməkdaşı Kşiştof Varqan deyir ki, çovğunun gücü yerdəki hava ilə əlaqəlidir və cənub halqa rejimi adlanan sikldən asılıdır. Hazırda həmin sikl müsbət fazada olduğuna görə çovğun intensivləşib.

Digər amerikalı alim Emi Batler isə hesab edir ki, qütb stratosferində əsən küləklər əvvəlkilərdən daha güclü olub və bu, qütbə yönəlmiş axının dəyişməsi ilə əlaqədardır. Nəticədə Antarktidanın əksər hissəsi üzərində soyuq hava "bağlı" qalır.

Alim yazır ki, güclü qütb çovğunu Antarktida üzərində şaxtanı saxlamaqla bərabər, həm də stratosfer ozonunun tükənməsinə aparan prosesləri sürətləndirir. Bu il Antarktida üzərindəki ozon dəliyi orta göstəricidən xeyli çoxdur və çovğunun qarşısını alarkən təxminən 24 milyon kvadratkilometrə çatıb.

Alimlər vurğulayıblar ki, cənub qütbü üzərində qeydə alınan rekord soyuqlar qlobal istiləşmə nəzəriyyəsini təkzib etmir. Belə ki, Antarktidada qlobal tendensiyalara zidd olan kəskin hava və iqlim dəyişikliklərinin baş verməsi məlumdur.

Antarktidada iqlimlə bağlı baş verənləri qiymətləndirmək üçün bir mövsümlük məlumat azdır. Vaşinqton Universitetinin atmosfer elmləri professoru Erik Steyq bildirir ki, "bir soyuq qış maraqlıdır, lakin bu, istiliyə doğru uzunmüddətli tendensiyanı heç cür dəyişmir".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Gəncədə Əhməd Cavadın barelyefinin açılışı olub





Gəncədə istiqlal şairi Əhməd Cavadın barelyefinin açılışı olub.

Mərasimdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, şairin nəticəsi Cavad Axundzadə, AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev, Azərbaycan Yazıçılar Birliyinin Gəncə bölməsinin sədri Xəzangül Hüseynova, "Cavad xan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov, idarə, müəssisə, təşkilat rəhbərləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir sözləri Əhməd Cavadın olan Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra barelyefin üzərindəki ağ örtük götürülüb, önünə tər güllər düzülüb.

Mərasimdə çıxış edənlər şairin həyat yolundan, Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən, o cümlədən şairin Gəncəyə olan bağlılığından söz açıblar. Bildirilib ki, Əhməd Cavad 1892-ci il mayın 5-də Gəncə qəzasının Şəmkir dairəsi, Seyfəli kəndinin Mehrəli tirəsində ruhani ailəsində dünyaya gəlib. Atası Məmmədəli axund olub. Azərbaycanın görkəmli tarixi simalarından biri kimi tanıdığımız Cavadxan axund Məmmədəlinin atası ilə yaxın olduğundan ailədə həmişə onun haqqında xoş söhbətlər gedib. Elə bu hörmət və ehtiramın əlaməti kimi axund Məmmədəli oğlunun adını Cavad qoyub. Atasının vəfatından sonra Əhməd Cavad anası ilə bərabər 1906-cı ildə Gəncəyə köçüb. Onun bu şəhərə olan bağlılığı, saf sevgisi demək olar ki, əksər şeirlərində əks olunub. Repressiya qurbanı olan Əhməd Cavad 1937-ci il iyun ayının 4-də həbs edilib. Həmin ilin oktyabr ayının 12-dən 13-nə keçən gecə isə Bakıda güllələnib.

Çıxışlardan sonra Əhməd Cavadın nəticəsi Cavad Axundzadə və şairin kötücəsi Nərgiz Əhmədqızı barelyefin təşkilində əməyi olan hər kəsə təşəkkürlərini bildiriblər.

Tədbirdə şairin müəllifi olduğu "Gəncəm, hey!.." şeiri və ona bəstələnən mahnı səsləndirilib.

***Sabir ƏLİYEV, "Azərbaycan"***



## Günün idman manşeti



**AZƏRBAYCAN PREMYER LİQASI — TURNİR CƏDVƏLİ**

| N | KLUBLAR | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Qarabağ | 7 | 5 | 2 | 0 | 13-4 | 17 |
| 2 | Neftçi | 7 | 4 | 2 | 1 | 14-8 | 14 |
| 3 | Qəbələ | 7 | 3 | 3 | 1 | 12-6 | 12 |
| 4 | Zirə | 7 | 3 | 3 | 1 | 9-6 | 12 |
| 5 | Sumqayıt | 7 | 2 | 2 | 3 | 5-5 | 8 |
| 6 | Keşlə | 7 | 2 | 1 | 4 | 6-11 | 7 |
| 7 | Səbail | 7 | 2 | 0 | 5 | 5-15 | 6 |
| 8 | Sabah | 7 | 0 | 1 | 6 | 3-12 | 1 |

# 10 QOLLU TUR

## Premyer Liqada ilk dövrəyə yekun vuruldu







**"Sabah" - "Qarabağ" - 1:2**

**Qollar:** Aleksey İsayev, 64 - Filip Ozobiç, 44, Abdullah Zubir, 51

**Qırmızı vərəqə:** Xulio Sezar Rodriges, 27

Futbol üzrə Azərbaycan Premyer Liqasında keçirilən 7-ci turun qarşılaşmaları ilə çempionatın ilk dövrəsinə yekun vurulub. Cari mövsümdə qələbə üzü görməyən aşkar autsayder "Sabah" məğlubiyyətsiz yeganə komandanı - "Qarabağ"ı qəbul edib. Bakılıların xal həsrəti, ağdamlıların isə uğurlu seriyası davam edib. 27-ci dəqiqədə meydançada azlıqda qalan "Sabah" fasilə ərəfəsində hesabda da geri düşüb. İkinci hissənin əvvəllərində "Qarabağ" daha bir dəfə fərqlənib. Paytaxt təmsilçisi 10 nəfərlə oynamasına baxmayaraq, fərqi minimuma endirməyi bacarıb. Lakin Ramin Quliyevin kollektivinin bundan artığına gücü çatmayıb.

Ağdamlılar oyuna daha sürətli başladılar. Meydançanın mərkəzində pressinq tətbiq edərək paytaxt komandasına boş zona buraxmadılar. Nəticədə itirilən hər top "Sabah"ın qapısı qarşısında qol epizodları ilə yadda qaldı. Buraxılan qollardan sonra meydan sahiblərinin baş məşqçisi oyun planında dəyişikliyə getdi. Müdafiədən oyun qurmaq yerinə uzun ötürmələrlə meydançanın rəqibə aid hissəsində cinahlardan hücuma keçid taktikası seçdi. Eyni zamanda itirilən hər topun tez bir zamanda komandaya qazandırılması "Qarabağ"ın hücum kəsərini zəiflətdi.

Fasilədən sonra paytaxt klubunda fiziki yorğunluq hiss olunmağa başladı. Elə buna görə idi ki, hər itirilən topdan sonra boş zonalarda çoxala bilmədilər. Nəticədə rəqibinə ardıcıl 5-ci dəfə uduzan "Sabah" bu matçda da qələbə həsrətinə son qoya bilmədi. İzləyicilərinin xal itirməsindən məharətlə yararlanan "Qarabağ" isə ikinci dövrə öncəsi liderliyini bir qədər də möhkəmləndirdi.

**"Sumqayıt" - "Neftçi" - 1:1**

**Qollar:** Murad Xaçayev, 50 - Sabir Buqrin, 54

Paytaxt təmsilçisi mövsümə qeyri-sabit başlanğıc edən "Sumqayıt"ın qonağı olub. Son iki ev oyununda "ağ-qaralar"ın qapısına yol tapa bilməyən "gənclik şəhəri"nin təmsilçisi bu uğursuzluğa son qoya bilib. Həmin qol da Ayxan Abbasovun yetirmələrinə 1 xal qazandırıb. Bu komandalar arasında son iki ildə keçirilən 6 matçda olduğu kimi, yenə ev sahibi olan tərəf qələbə üzü görməyib.

Düzdür, ilk hissədə mübarizə meydançanın daha çox mərkəzində getsə də, "ağ-qaralar"ın qurduqları hücumlar daha kəsərli idi. Oyunun əvvəlindən üstünlüyü ələ keçirən "Neftçi" meydançanın rəqibə aid hissəsində pressinq tətbiq edərək "Sumqayıt"ın oyun qurmasına mane oldu. Meydan sahibləri bu matçda yaranan əks-hücumlarda müdafiənin arxasına atılan toplarla qol epizodu yaratmağa çalışırdılar. Belə epizodlardan birində Murad Xaçayev "Sumqayıt"ı hesabda irəli çıxartdı.

Qoldan sonra tədricən qısa ötürmələrə üstünlük verən paytaxt klubu Samir Buqrinin vurduğu qolla hesabda tarazlığı bərpa etdi. Görüşün qalan dəqiqələrində hər iki komandanın qol vurmaq üçün şansları olsa da, onlardan yararlana bilmədilər.

**"Səbail" - "Keşlə" - 1:2**

**Qollar:** Rauf Əliyev, 71 - Tərlan Quliyev, 68, Anatole Abanq, 81

Çempionatın iki autsayder komandalarının duelində qonaqlar qələbəyə sevindilər. Son iki turda 4 xal topladığı üçün postunda saxlanılan Sənan Qurbanovun komandası "Keşlə" uğurlu seriyanı "Səbail"lə səfər matçında da davam etdirdi. Qəsəbə təmsilçisi "ASCO Arena"da minimal hesabla qələbə qazanaraq, turnir cədvəlində rəqibini qabaqladı.

Düzdür, ilk hissədə mübarizə meydançanın daha çox mərkəzində getsə də, "Keşlə"nin qurduğu hücumlar daha kəsərli idi. Oyunun əvvəlindən üstünlüyü ələ keçirən qonaqlar meydançanın rəqibə aid hissəsində pressinq tətbiq edərək "Səbail"in oyun qurmasına mane oldular. Bununla da yarımmüdafiə ilə hücum xəttində yer alan oyunçuların bağlantısı kəsildi. Meydan sahibləri yalnız yaranan əks-hücumlarda müdafiənin arxasına atılan toplarla qol epizodu yaratmağa çalışdılar. Lakin bütün cəhdlərə baxmayaraq, məğlubiyyətdən qaça bilmədilər.

**"Qəbələ" - "Zirə" - 1:1**

**Qollar:** Ülvi İsgəndərov, 79 - Cəlal Hüseynov, 18

Mövsümə uğurlu start götürən "Qəbələ" ilə "Zirə" isə birincilərin meydanında qarşılaşdılar. Doğma arenasında "Zirə"yə axırıncı dəfə 2016-cı ildə uduzan "Qəbələ" 9 oyunluq məğlubiyyətsizlik seriyasını 10-a yüksəltdi. Halbuki görüşdə hesabı bakılılar açıblar. Bölgə təmsilçisi sona yaxın bərabərlik topunu vurdu. Turnir cədvəlində eyni xala malik qonşu komandaların dueli sonda qollu bərabərliklə yekunlaşdı.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti paralon, linoleum, brezent və müxtəlif növ parçaların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 oktyabr 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən Qarabağda turizm resurslarının təhlili və turizm potensialının mövcud vəziyyətinin qiymətləndirilməsi işlərinin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun satın alınması üçün təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda təcrübəsi olan və ixtisaslı işçi heyətinə malik rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *təklif (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
- *təklif dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *məhkumluq barədə arayış;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *təkliflər sorğusuna dair təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 3 (üç) il ərzində oxşar işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *peşəkar işçi heyəti (əmək müqaviləsinə dair bildirişlər və CV daxil olmaqla);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair sənəd;*
- *digər sənədlər (təkliflər sorğusunun Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla təkliflər sorğusunda iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar təkliflər sorğusuna dair təkliflərini qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə təqdim etməlidirlər. Azərbaycan Respublikasından olan iddiaçıların təkliflər sorğusuna təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ikiqat zərflərdə 02 noyabr 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Nizami küçəsi 96E, Landmark I, 3-cü mərtəbəyə (əlaqələndirici şəxs - Mehman Bayramova) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 03 noyabr 2021-ci il saat 12:00-da Bakı şəhəri, Nizami küçəsi 96E, Landmark I, 3-cü mərtəbədə açılacaqdır. Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

*Təkrar*

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanından (əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: (+99412) 310-07-70 (daxili 2011) e-mail: **asalayev@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. **Tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması.**

İştirak haqqı: 500.00 (beş yüz) manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: “Kapital Bank” ASC-nin Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
4. *Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi-ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.*
5. *İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.*
6. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.*
7. *İddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).*
8. *İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı **50 (əlli) bank günü** qüvvədə olmalıdır.*
9. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən **30 (otuz) bank günü** çox olmalıdır).*
10. *Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.*
11. *Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya “ASAN xidmət” mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **16.11.2021-ci il saat 18:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24.11.2021-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **25.11.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanında yerləşən “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Xəzər dənizində Azərbaycanın dövlət sərhədinin pozulması cəhdinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən Xəzər dənizində dövlət sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, rejim qaydalarına nəzarətin gücləndirilməsi və qaçaqmalçılığa qarşı mübarizə tədbirləri davam etdirilir.





DSX-nin Mətbuat mərkəzindən verilən məlumata görə, oktyabrın 16-da saat 23:00 radələrində Xidmətin Sahil Mühafizəsinin texniki müşahidə məntəqələri tərəfindən Xəzər dənizində cənub istiqamətindən Azərbaycan Respublikasına mənsub sulara daxil olaraq şimala doğru hərəkət edən üç naməlum hədəf aşkarlanaraq nəzarətə götürülüb.

Azərbaycan Respublikasına mənsub sulara daxil olmuş naməlum üzmə vasitələrinin saxlanılması məqsədilə Xəzər dənizində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmiləri dərhal həmin istiqamətə göndəriliblər. DSX Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri tərəfindən naməlum üzmə vasitələrinin hərəkətinin qarşısı alınıb. Təqib edilən itisürətli üzmə vasitələri sərhəd gözətçi gəmisindən açılan xəbərdarlıq atəşindən sonra bortlarında olan yükləri suya ataraq geriyə doğru hərəkət edib və Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub sularını tərk ediblər.

Sudan çıxarılan yüklərə baxış zamanı ümumi dəyəri təxminən 100 min manata yaxın 23 min 780 ədəd siqaret qutusunun olduğu müəyyənləşdirilib.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# “Qələbə Yürüşü” kuboku uğrunda mübarizə başa çatdı

Zəfər bayramı ərəfəsində Azərbaycan Respublikası Atçılıq Federasiyası vətənpərvərlik ruhunda təşkil olunacaq yarışlar silsiləsinə start verib. Belə ki, 15-16 oktyabr 2021-ci il tarixlərdə Sərhədçi Atçılıq Mərkəzinin açıq manejində “Qələbə Yürüşü” kuboku uğrunda konkur yarışları keçirilib.









“E”, “L” və “M**” kateqoriyaları üzrə təşkil olunan turnirdə Azərbaycanın müxtəlif atçılıq klublarının yeniyetmə və yetkin yaş qrupları üzrə idmançıları iştirak ediblər.

İlk yarış 15 oktyabr tarixdə saat 12:00-dan etibarən başlamışdır. “E” kateqoriyası üzrə 80 sm hündürlükdə qurulan maneələrdən ibarət yarışda 20 yaşadək idmançılar yaş məhdudiyyəti qoyulmayan atlarla, 20 yaşdan yuxarı idmançılar isə 6 yaşadək olan atlarla iştirak ediblər. 9 idmançının iştirak etdiyi mübarizədə Respublika Atçılıq və Müasir Beşnövçülük üzrə İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin idmançısı, Rəna Axundova “Tibet” ləqəbli atla 1-ci, Elit Atçılıq Klubunun idmançısı Məhəmməd İsgəndərov “Meq” ləqəbli atla 2-ci yerin sahibi olub. 3-cü yerdə Sərhədçi Atçılıq klubunun idmançısı Qəzənfər Fərzəliyev qərarlaşıb.

Günün 2-ci yarışı saat 13:30-dan etibarən başlayıb. “L” kateqoriyası üzrə, hündürlüyü 110 sm olan yarışda 12 idmançı iştirak edib. Nəticədə Gilan Atçılıq Klubunun idmançısı Rahib İsmayılov “Carthanio” ləqəbli atla 1-ci yerin sahibi olub. 2-ci yerə Sərhədçi Atçılıq Klubunun idmançısı Seyid Musayev “Ayla” ləqəbli atla yüksəlib. 3-cü yerdə “Elano C” ləqəbli atla “Murad” Atçılıq Klubunun idmançısı Kənan Novruzov qərarlaşıb. Sərhədçi Atçılıq Klubunun idmançısı Seyid Musayev ikinci atı olan “Zirvə” ləqəbli atla 4-cü yerin sahibi olub. 5-ci yerdə “Murad” Atçılıq Klubunun idmançısı Kənan Novruzov “D'Amour” ləqəbli atla qərarlaşıb.

Nəhayət, 16 oktyabr tarixdə saat 12:00-dan etibarən üçüncü və turnirin son yarışına start verilib. “M**” kateqoriyalı 125 sm hündürlükdə yerləşdirilmiş maneələrdən ibarət yarışda 9 at iştirak edib. “Buta Golden” Atçılıq Klubunun idmançısı Eqor Morotskiy “Astrello” ləqəbli atla öz rəqiblərinə qalib gələrək 1-ci yerin və “Qələbə Yürüşü” kubokunun sahibi olub. Sərhədçi Atçılıq Klubunun idmançısı Seyid Musayev “Zirvə” ləqəbli atla 2-ci və “Ayla” ləqəbli atla 3-cü yerdə qərarlaşıblar.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycan Dövlət Dəniz Akademiyasının auditoriyalarına tələbələr üçün tək nəfərlik masaların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər adda.edu.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 01 noyabr 2021-ci il saat 15:30-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç. 18, ADDA-nın əsas inzibati binası.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 3042.**

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti paronit, nabivka və əyləc lentlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 oktyabr 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Milli Məclisin deputatı, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı
**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri Rəşid Rzayevə həyat yoldaşı
**GÜLNARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əhməd Əhmədzadə Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı
**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əhməd Əhmədzadə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalova qardaşı
**BAYRAM ZALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Qafqaz Müsəlmanları İdarəsinin şöbə müdiri
**ƏLİRZA QAFAROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və şöbənin əməkdaşları Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı
**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azneftemaş” ASC-nin prezidenti Şahmar Vəliyev Milli Məclisin deputatı, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı, filologiya elmləri doktoru, professor
**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Azneftemaş” ASC-nin prezidenti Şahmar Vəliyev Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı
**BAYRAM ZALOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, QMİ-nin Qazılar Şurası və idarənin kollektivi QMİ-nin Təşkilat şöbəsinin müdiri
**ƏLİRZA QAFAROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı
**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Eldar Əliyev, Rafiq Hüseynov, Muqdat İsmayılov, Vüqar Şəfiyev və Vüqar Şıxməmmədov Azərbaycan Respublikası müdafiə nazirinin katibliyinin rəisi, general-mayor Namiq Poladova qardaşı
**RÖVŞƏN QASIM OĞLU POLADOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Kommersiya Məhkəməsinin sədri Namidar Misirzadə Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Rəşid Rzayevə həyat yoldaşı
**GÜLNARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5610
Sifariş 1984
Qiyməti 40 qəpik